# İRFAN

№ 96 Noyabr 2014 İctimai fikir jurnalı 3 AZN



Həyatı Ona Həsr Etmək

# TÖVHİD

# Redaktordan



Əziz Oxucu!

Tövhid insan oğlunun varlıq səbəbidir. Rəbbini tanıyan insan Onun qoyduğu yolda irəliləyərək dünya və axirətdə səadətin yolunu asanlıqla tapma imkanı əldə edir. Allahın birliyini qəbul edənlər, hər şeyin Ondan gəldiyinə inananlar başqa qapılarda əyilmək rəzalətindən xilas olanlardır. Tövhid inancı həmçinin ümmətin birliyini təmin edən ən ülvi amildir. Nədənsə son dövrlər bizi birləşdirən bu dəyərimizi kimlərsə fərqli göstərərək aramızda ayrılıq toxumları səpmək üçün istifadə edirlər. Ona görə də jurnalımızın bu sayında tövhidin nə olduğuna diqqət çəkmək istədik. Tövhid nədir? Onu necə başa düşməliyik? Peyğəmbərlər və Haqq dostları bütün ömürlərini tövhidə həsr edən müstəsna insanlardır. Mövzudan söz açılmışkən, Məhərrəm ayının gəlişi ilə şəhadət il dönümünü yaşayacağımız Həzrət Hüseynin tövhid davası uğrunda canını fəda etməsindən də söz açmaq yerində olardı. O Peyğəmbər nəvəsi ədalət naminə tövhid bayrağını dalğalandıran hər kəsə nümunədir. Bu baxımdan onun həyatını öyrənmək hər bir müsəlmanın borcudur.

Bu sayımızda tövhidin “Ürəyi yalnız Allaha həsr etmək” olduğunu, “İnsanlığın zəruri ehtiyac və dəyəri”nin məhz tövhid olduğunu eyniadlı məqalələrdən oxuyacaqsınız. “İslam tövhid və dürüstlük istər” yazısında Həzrət Peyğəmbərin də buyuduğu ki istiqamət üzrə olmağın zərurətindən söz açılır. “Bir üçün, birlik üçün canı fəda etmək” başlıqlı məqalədə tövhid uğrunda canından keçənlərin, o cümlədən Həzrət Hüseynin ibrətamiz tövhid mücadiləsini gözlər önünə gətirməyə çalışdıq. Dəyərli yazarlarımızın qələmindən çıxan “Duada təvəssül”, “Qəbir və türbə ziyarətləri ədəbi” adlı məqalələrdə tövhid inancına nələrin zərbə vurduğunu, nələrin caiz olduğunu oxuyacaqsınız. “Rəsulullahın vəsiyyəti” bizi tövhidi zədələməmək üçün bidətlərdən uzaq olmağa səsləyir.

Burada fürsətdən istifadə edərək 2015-ci ilin abunə kampaniyasının başladığını diqqətinizə çatdırırıq. Kampaniyamız və yeni ilin abunə hədiyyələri ilə jurnalımızın arxa səhifəsində ətraflı tanış ola bilərsiniz. 2014-cü ildə bizimlə birlikdə olduğunuz üçün hər birinizə təşəkkür edir, növbəti illərdə də sizinlə olmaqdan qürur duyacağımızı bildiririk.

İRFAN
Noyabr/2014/№:96
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Baş redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Kompüter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2013 © All Rights Reserved
Created and supported by “irfan”

Foto:
«İRFAN»

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri:
Tel: 051 412-22-82

Təklifləriniz üçün bu nömrəyə
müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

4
BİR ÜÇÜN, BİRLİK ÜÇÜN CANI FƏDA ETMƏK
NURLAN MƏMMƏDZADƏ



8
TÖVHİD -ÜRƏYİ YALNIZ ALLAHA HƏSR ETMƏK-
ALİ ÇINAR



28
XEYİRLİ ÜMMƏT
OSMAN NURİ TOPBAŞ



16
QƏBİR VƏ TÜRBƏ ZİYARƏTİ ƏDƏBLƏRİ
SALEH ŞİRİNOV



6 İslam Tövhid və Dürüstlük İstər
Rüfət ŞİRİNOV

10 Duada Təvəssül
Sedat DEMİR

13 Quran gündəliyi
Kamran MƏMMƏDOV

14 İnsanların zəruri ehtiyacı və ortaq dəyəri Tövhİd
i.f.d. Elşad MAHMUDOV

20 Dünyada nə qədər müsəlman yaşayır?
Firdovsi HƏSƏNOV

22 Rəsulullahın Vəsiyyəti
Aqil ƏLİYEV

24 İslami Nizam Elmdədir 2
Mübariz ƏLİOĞLU

26 Bir Ayə
Fuad QULİYEV

27 Bir Hədis
Səfa MURADOV

35 Xidmətdə 101 Addım

36 Əməlləri Yandıran Ataş - Həsəd
Nürəddin RÜSTƏMOV

38 Qurandakı Təkrarların Möcüzəvi Sayı
Kamal SƏLİMOV

40 Yol Dərsləri
Adem ŞAHİN

42 Qısa Ömür Şirin Ömür
İlham SOVQATOV

44 Gənc Baxış

46 Biz də Möminikmi?
Əziz SULTANOV

48 Tövhid və Şəhadət
Rüstəm HUDULOV

49 Həyat Dəftərindən
Ülvi MƏMMƏDOV

50 Elmsiz Müsəlman
Eldar KƏRİMOV

52 Namaz və Şeytan
Alpay ƏHMƏD

54 Xəbər

*Sorma hər kişinin əslin izzətindən bəllidir / Söhbəti irfan görənlər xidmətindən bəllidir.* *Nəsimi*


الواحد
١٤٣٠

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@gmail.com

# BİR ÜÇÜN, BİRLİK ÜÇÜN CANI FƏDA ETMƏK



İnsan oğlunu bu dünyada və axirətdə məsud və bəxtiyar edəcək ən doğru yol Yaradanı tanıyaraq Onun qoyduğu yolla addımlamaqdan keçir. Çünki varlqı səbəbimiz Allahı Rəbb olaraq tanıyıb Ona ibadətdir (əz-Zriyat, 56). İlk insandan bəri bütün peyğəmbərlər bəşəriyyəti tövhidə çağırdı. Tövhid ki, yalnız və yalnız BİR olana inanmaq, hər şeyin Ondan gəldiyinə iman gətirmək və bütün duyğuları, hissləri BİRin ətrafında cəm etmək, həyatı bir olan Allaha həsr etməkdir. Həqiqi tövhid hər şeyin mərkəzində bir olan Allahı görmək, hər şeyə Onun açdığı pəncərədən baxmaqdır. İnsan tövhid sayəsində bütün məxluqatın bir olan varlıq tərəfindən yaradıldığını dərk edərsə, məhz o zaman aradakı fərqliliklər dəyərini itirir. Məhz o zaman insan təfəkküründə və düşüncəsində yalnız bir ilah, Ondan qeyri hər şeyin isə Onun qulu olduğu fikri formalaşır. Bu nöqteyi-nəzərdən tövhid eyni zamanda insanların birlik şüurunun güclənməsinə təkan verən mühüm amillərdəndir. Allahı, kitabı, qibləsi bir olan möminlər bunun fərqinə vardıqları zaman sözün həqiqi mənasında birlik və bərabərlik meydana gətirmiş olurlar. İslam tarixində bunun saysız-hesabsız canlı nümunələri ilə qarşılaşmaq mümkündür. Təəssüflər olsun ki, bu gün yalançı tövhid davası adı altında özündən olmayanları kafir elan edərək ümmətin birlik və bərabərliyini zədələyənlər işin həqiqətini bilməyənlərin qəlbinə şübhə toxumları saçmaqda və yer üzündə fitnə-fəsad çıxarmaqdadırlar. XXI əsr müsəlmanının önündə duran ən böyük məsuliyyət bu kimi fitnələrə uymadan İslamın həqiqətindən zərrə qədər də olsa ayrılmamaqdır.

Tövhid sözün əsl mənasında ciddi imtahanlar tələb edir. Yaradanın, yaşadanın, öldürənin, nemət və ruzi verənin yalnız Allah olduğuna inananlar həyatları boyu bunun imtahanı ilə qarşılaşa bilərlər. Qurani-Kərimdə bunun bir çox misalı ilə qarşılaşırıq. Müqəddəs kitabımızda Hz. Musanın haqq olduğunu görüb gətirdiyi dini qəbul edən sehrbazların ilahlıq iddiasında olan firon tərəfindən əl-ayaqları çarpaz kəsilərək asılmaqla sınağa çəkilməsi iman davasında başa gələ biləcək

çətinliklərdən və bu yolda mətin olmağın şərəfindən söz açılır. İman imtahanlarını diri-diri tonqalda yandırılaraq verən Əshabi-Uxdudun və bir zamanlar Roma arenalarında şirlərə yem edilən həqiqi isəvilərin, Məkkə müşrikləri tərəfindən olmazın işkəncələrə məruz qalan əshabi-kiramın halı hər bir iman sahibinə nümunə olmalıdır. Həzrət Peyğəmbər (s.ə.s) iman davasında başa gələn bəlaları səbir və mətanətlə qarşılamağın önəminə diqqət çəkərək işgəncədən şikayət edən səhabələrə belə buyururdu:

*"Allaha and olsun ki, sizdən əvvəlki qövmlər arasında Allaha iman gətirmiş bir insan tutulur, dizlərinə qədər yerdə qazılmış çuxura basdırılır, sonra da mişarla başının ortasından ikiyə bölünürdü. Amma yenə də bu işgəncə onu dinindən döndərməzdi. Yaxud da dəmir daraqlarla əti sümüyündən ayrılırdı, amma yenə də bu işgəncə onu dinindən döndərməzdi. Allahdan qorxun! Şübhəsiz ki, Allah-Təala sizin üçün fəthi ehsan edəcəkdir!".*

Hicri təqvimlə Məhərrəm ayının gəlişi bizə ilk növbədə Allah Rəsulunun çox sevdiyi, ciyərparası Hz. Hüseynin şəhadətini xatırladır. Tövhid mövzusunun qapağa çəkildiyi bu ayda eyni zamanda Hz. Hüseynin və Kərbəla şəhidlərinin xatirəsi də yad olunur. Tövhid davası, ümmətin birlik və bərabərliyi uğrunda, ədalətin bərqərar olması naminə canını fəda edən Həzrət Hüseyndən alacağımız dərs çoxdur. O, Peyğəmbər babasından, elm şəhərinin qapısı sayılan atasından aldığı iman dərsi ilə son damla qanına qədər İslamın həqiqətini hayqırdı. Şəhadəti ilə biz müsəlmanlara nəyin bahasına olursa olsun, əsla və əsla tövhid inancını zədələməməyimizi birlik və bərabərliyi qorumağın zərurətini öyrətdi. Bu gün isə İslamın həqiqətlərini dünyaya tanıtmaq, müsəlmanlığın şərəfini qorumaq növbəsi bizdədir. Yuxarıda da qeyd etdiyimiz

*Tövhid mövzusunun qapağa çəkildiyi bu ayda eyni zamanda Hz. Hüseynin və Kərbəla şəhidlərinin xatirəsi də yad olunur. Tövhid davası, ümmətin birlik və bərabərliyi uğrunda, ədalətin bərqərar olması naminə canını fəda edən Həzrət Hüseyndən alacağımız dərs çoxdur. O, Peyğəmbər babasından, elm şəhərinin qapısı sayılan atasından aldığı iman dərsi ilə son damla qanına qədər İslamın həqiqətini hayqırdı. Şəhadəti ilə biz müsəlmanlara nəyin bahasına olursa olsun, əsla və əsla tövhid inancını zədələməməyimizi birlik və bərabərliyi qorumağın zərurətini öyrətdi.*

kimi bəzi fəsadçıların fitnə toxumları ilə ümmətin birliyini zəhərləməsinin qarşısını almalı, İslam adı altında dinimizi ləkələməyə çalışan, əcnəbi köklərdən bəslənən bir sıra qruplaşmalara fürsət verməməliyik. Peyğəmbərlərin, əshabi-kiramın, İslamın dahi şəxsiyyətlərinin, bu ayda şəhadətinin ildönümünü qeyd etdiyimiz İmam Hüseynin yolu bu idi. Elə isə onların yolundan gedərək dinimizi onlar kimi təmsil etməyə çalışmalıyıq. Allah-Təala haqq yolda canlarından keçənlər üçün Qurani-Kərimdə belə buyurur:

**"Allah möminlərdən canlarını və mallarını onlara haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır..."** (ət-Tövbə, 111).

Rüfət ŞİRİNOV
rufet_80@hotmail.com




# İSLAM TÖVHİD VƏ DÜRÜSTLÜK İSTƏR

Uca Yaradan İslam dinini kamil və son din olaraq adlandırmışdır. Peyğəmbərimiz (s.ə.s) də son və mükəmməl dini ən doğru şəkildə anlayıb həyatımıza necə tətbiq edəcəyimizi öyrətmişdir. Deməli, həqiqi müsəlman olmaq üçün Quran və Sünnə, yəni Allahın buyuruqları ilə Peyğəmbərimizin (s.ə.s) tövsiyə və tətbiqlərinə riayət etmək lazımdır. İslam dini bütün incəlikləri ilə bir bütündür. Yəni həqiqi müsəlmançılıq İslamı bütün incəlikləri ilə yaşamağa çalışmaq və buna inanamaqla mümkündür.

Həzrət Peyğəmbər (s.ə.s) əshabələrinə daim qurtuluş yollarını göstərir, onlara düzgün müsəlman olmağın şərtlərini açıqlayır və bunları öz həyatında tətbiqi olaraq hər kəsə nümayiş etdirirdi. Buna əsasən səhabələrdən Əbu Əmrin Rəsulullahdan etdiyi xahişi İslam dinini, yəni qurtuluş yolunu necə də gözəl xülasə edir. O, Peyğəmbərə (s.ə.s) belə deyir:

- Ey Allahın Elçisi, mənə İslamı elə bir şəkildə öyrət ki, bu barədə səndən başqasından heç nə soruşmayım. Allah Rəsulu (s.ə.s) belə cavab verir:

*"Allaha iman gətirdim – de, sonra da dürüst (istiqamət üzrə) ol"* (Müslim, İman 62).

Bu hədis Həzrət Peyğəmbərin (s.ə.s) iyirmi üç illik təbliğat və peyğəmbərlik vəzifəsinin xülasəsidir. Çünki hədisdə qurtuluş yolu göstərilir. Bu yol da dürüst olmaq, yəni dinin istiqaməti üzrə olmaqdır. Hədisdə istiqamətə nail olmağın yolu kimi Allaha həqiqi şəkildə iman gətirmək göstərilmişdir. Bu hədisə əsasən İslam dinini belə düsturlaşdıra bilərik: **İslamiyyət =İman+İstiqamət.**

İman və istiqamət bütünlüyü yeganə

*İman və istiqamət bütünlüyü yeganə qurtuluş yoludur. İman Allahın bütün əmrlərinə daxilində şəkk-şübhə olmadan inanmaq və gərəyini yerinə yetirməkdir. Allahın əmrlərini və qadağalarını sorğusuz qəbul etməkdir. Deməli, sadəcə "iman etdim, inanıram" deməklə həm həqiqi müsəlman ola bilmərik, həm də hədəfimiz olan cənnəti əldə edə bilmərik.*

qurtuluş yoludur. İman Allahın bütün əmrlərinə daxilində şəkk-şübhə olmadan inanmaq və gərəyini yerinə yetirməkdir. Allahın əmrlərini və qadağalarını sorğusuz qəbul etməkdir. Deməli, sadəcə "iman etdim, inanıram" deməklə həm həqiqi müsəlman ola bilmərik, həm də hədəfimiz olan cənnəti əldə edə bilmərik.

İman istiqamət ilə kamillik tapır. Bu mənada istiqamət daha da önəm qazanır. Hətta Həzrət Peyğəmbərin *"Məni Hud surəsi və qardaşları qocaltdı"* (Tirmizi)- deməyə vadar edən Hud surəsindəki 112-ci ayə **"(Ya Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol** ..." ayəsi olmuşdur. Bu hadisə istiqamət üzrə olmağın çox çətin olduğunu göstərməyə kifayətdir. İbn Abbas da Həzrət Peyğəmbərə (s.ə.s) bu ayədən daha çətin bir ayə enmədiyini ifadə etmişdir. Yeri gəlmişkən, ifadə etmək lazımdır ki, "tövhid əqidəsinə sahib hər kəs istiqamət üzrədir, dürüst həyat yaşayır" demək çətindir. Çünki əqidədəki keyfiyyət və məqam fərqliliyi eyni nəticəni verməz. Elə isə bunu ifadə etsək xəta etmiş sayılmarıq: **"Tövhid əqidəsi istiqamətin əsas şərtidir, ancaq istiqamət tövhidin məcburi nəticəsi deyildir."** Əsl qəhrəmanlıq bu iki xüsusu, yəni tövhid ilə istiqaməti birləşdirməkdir.

İstiqaməti üç əsasda xülasələşdirmək mümkündür:

1. **İmanda istiqamət.** Səmimiyyətlə İslamın inam əsaslarının hamısına inanmaq və əsla şübhəyə düşməməkdir.
2. **Kəlamda istiqamət.** Doğru danışmaq, aldatmamaq, doğru sözlü olmaq deməkdir. Bir hədisdə Peyğəmbərimiz (s.ə.s) ən çox narahat olduğu şey kimi dilini göstərmişdir.
3. **Əməldə İstiqamət.** Dürüst şəkildə yaşamaqdır. İfrata və təfritə düşmədən dini və həyatı orta yol üzrə yaşamaqdır. Yəni qısacası, Peyğəmbərimizin göstərdiyi şəkildə yaşamaq deməkdir. Əməldəki dürüstlük davranış qaydalarındakı dürüstlüyə də bilavasitə təsir göstərir.

Deməli, qəlbi ilə, kəlamı ilə və yaxud da feli olaraq əmrlərdən uzaqlaşan, ya da qadağaları işləyən kimsə istiqamətdən uzaqlaşmış və ayrılmışdır. İstiqamətdən uzaqlaşmaq imanı təhlükəyə salar, hətta müsəlmançılığın əldən getməsinə səbəb olar.

İstiqamət üzrə olmaq fədakarlıq tələb edir. Hətta istiqaməti əldə etməyin çətinliyini bilən könülərləri belə demişdir: "əl-İstiqamətu xayrun min əlfi kəramətin" (istiqamət min kəramətdən daha xeyrlidir.)

Hər gün namazda oxunan fatihə surəsindəki " ihdinəs- siratal-müstəqim" (bizi doğru, dürüst yola yönəlt) duası ilə də Allahımızdan bizi istiqamət üzrə etməsini istəyirik. Bu istək tətbiqat ilə özünü büruzə verməzsə, sadəcə istək kimi qalar, nəticə əldə edilməz.

Həqiqi istiqamətə nail olan şəxs o kimsədir ki, yanında Allahın adı çəkiləndə qəlbri ürpərər, qonşusu ac ikən özü tox yata bilməz, hər hansı müsəlmanın başına bir müsibət gələrsə, onu bütün vücudu ilə hiss edər, ən sevdiyi şeylərini Allah yolunda sərf etməkdən çəkinməz, sağ əlinin verdiyini sol əli hiss etməz, bir anını belə Allahdan qafil olaraq keçirmək istəməz.



Ali ÇINAR

# TÖVHİD

## -ÜRƏYİ YALNIZ ALLAHA HƏSR ETMƏK-

Rəsulullahın (s.ə.s) gətirdiyi İslam dini tövhid təməllərinə əsaslanan və Allah tərəfindən göndərilmiş dini-mubindir. Allah idrakın fövqündə olan və hər cür nöqsan sifətdən uzaq mücərrəd və münəzzəh varlıqdır.

Qurani-Kərim ələ aldığı bütün mövzuları tövhid qayəsinə əsasən təqdim edir. Fənni həqiqətlərə təması da bu qəbildəndir. Bu keyfiyyət Quranın qiyamətədək bütün zaman və məkanlarda davam edəcək xüsusi bir ecazkarlığıdır.

Allah Rəsulu (s.ə.s) məruz qaldığı bütün əzab-əziyyətə baxmayaraq tövhid davasında müşriklərlə heç cür uzlaşmadı, əsla İslamdan güzəştə getmədi.

Tövhid mücadiləsi yolunda çətin sınaqlardan keçmək sünnətullahın gərəyidir. Bütün peyğəmbərlər və sadiq bəndələr hər zaman məşəqqət çəkmiş, əziyyətə məruz qalmış, hətta bəziləri bu yolda şəhid olmuşdur. Bu səbəblə çətinliklə qarşılaşan bir müsəlmanın ümidsizliyə düşməsi doğru deyil. Əksinə, möminlər Allahın əmrini həyata keçirərkən zərər və müsibətlərə sinə gərdikləri nisbətdə Allahın rizasına və müvəffəqiyyətə nail olarlar.

On üç illik Məkkə dövrü şirki ortadan qaldırma və qəlblərdəki tövhid inancını gücləndirmə mücadiləsi ilə keçmişdir. Çünki tövhid inancı Allaha hər hansı bir varlığı ortaq qoşmağı əsla qəbul etməz.

İmanın hədəfi tövhidi yaşayaraq qəlbi yalnız və yalnız Allaha həsr edə bilməkdir. Bu baxımdan iman və tövhidin idrakı elmi, əxlaqi və mənəvi dəyərlərə sahib olmaqla mümkündür.

Deyə bilərik ki, Qurani-Kərimin tamamı kəlmeyi-tövhidin izahıdır. Çünki Qurani-Kərim din və tövhiddən ibarətdir. Bu həqiqəti ifadə mahiyyətində ayeyi-kərimədə belə buyurulur:

**“Bu (Quran) insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm də Allahın tək bir tanrı olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar!”** (İbrahim, 52)

İslam dini tövhid məsələsində həddən artıq həssas olmağı tələb edir. Hətta tövhidi zədələyəcək ən kiçik amillərin belə şirk olduğunu bildirir. Məsələn, bir adamın Allahın əmrlərini arxa plana ataraq öz arzusuna uymasına “nəfsini özünə ilah etdi” (əl-Furqan, 43) hökmünü verir. Həmçinin Allahın halal qıldığını haram, haram qıldığını da halal sayanları “rəblər”, onların bu arzularına uyanları da “bunları rəb sayanlar” olaraq vəsfləndirir. İbadətdə riyakarlığın da gizli şirk olduğunu bildirir.

İnsan nəfsi-əmmarədən xilas olmaq üçün zəruri olan şəri hökmlərə riayət edərək kəlmeyi-tövhidin ruh və həqiqətində dərinləşməyə çalışmalıdır. Bir növ qəlbdə bütləşərək insanı Rəbbinə

qarşı qəflətə salan bütün nəfsani istəklər “lə iləhə” deyərkən qəlbdən silinməlidir. Sonra isə təmizlənmiş qəlbə “illəllah” həqiqətini yerləşdirib, könül tamamən Allaha həsr edilməlidir. İmanın həqiqi mənada qəlbə yerləşib güclənməsi isə qulu saleh əməllərə və bunun nəticəsində də ülvi mərtəbələrə sövq edər.

Kəlmeyi-tövhid sadəcə sözdən ibarət qalmamalı, mütləq qəlbdə özünə yer etməlidir. Allahın birliyi dərin təfəkkür və şüurla qəlbə işləməlidir. Tövhid inancının zədələnməməsinə çalışmaq lazımdır. Əgər qəlb nəfsin işğalına məruz qalarsa, tövhid anlayışı da yaralanar. Ona görə qəlbi nəfsin işğalından qorumaq lazımdır. Səhərlər zikr olunan kəlmeyi-tövhidin məna və ehtivasının gündüzlərə də sirayət etməsi lazımdır. Gündüz **“lə iləhə”**nin mənasıyla nə qədər yoğrulub günahdan uzaqlaşa bilir, **“illəllah”**ın ehtivasına girib Allah-Təala ilə bərabərliyi təmin edə bilirik? **“Muhammədur-Rəsulullah”**ın haqqını vermək üçün Allah Rəsulunu nə qədər örnək alırıq? Kəlmeyi-tövhid qəlbimizə məhz bu təlqinləri etməlidir.

Kəlmeyi-tövhidi kamil mənada yaşamağımızın nəticəsində Rəbbimizin camal sifətləri üzərimizdə təcəlli edər. Məsələn;

“ƏR-RƏHMAN” ismi təcəlli edərsə, mərhəmətimiz hər kəsi əhatə edər. Yəni Xaliqin nəzəriylə məxluqata baxış tərzi qazanar və şəfqətimizi yalnız özümüzə və yaxınlarımıza deyil, bütün yaradılanlara yönəldərik.

“ƏL-AFUV” sifəti təcəlli edərsə, Allahın qullarının bizə qarşı işlədiyi xətaları asanlıqla bağışlayacaq hala gələrik. İman edənlərə qarşı qəlbimizdə kin və intiqam duyğusuna yer qalmaz.

“ƏL-VƏDUD” ismi təcəlli edərsə, Allahın düşmənləri xaric, hər kəsə və hər şeyə qarşı dərin məhəbbət bəsləyərik. Xülasə, səhərlər zikr etdiyimiz kəlmeyi-tövhidin ruhaniyyəti əvvəlcə könüllərimizi və sonra da gecə və gündüzümüzü əhatə edərsə,

*İslam dini tövhid məsələsində həddən artıq həssas olmağı tələb edir. Hətta tövhidi zədələyəcək ən kiçik amillərin belə şirk olduğunu bildirir. Məsələn, bir adamın Allahın əmrlərini arxa plana ataraq öz arzusuna uymasına “nəfsini özünə ilah etdi” (əl-Furqan, 43) hökmünü verir.*

son nəfəsimiz, yəni dünyadakı hər şeyə vidamız kəlmeyi-tövhidin ruhaniyyəti ilə şəbi-arusa çevrilər.

Səhabələr üçün həyatın ən zövqlü və mənalı anları insanlara tövhid mesajını çatdırdıqları zamanlar olmuşdur. Edam edilmək üzrə olan səhabə ona üç dəqiqə vaxt verən bədbəxtə təşəkkür edərək, “Deməli, təbliğ üçün üç dəqiqə vaxtım var”,- demişdir.

Son nəfəsdə kəlmeyi-şəhadəti söyləyə bilmək böyük xoşbəxtlikdir. Bunun üçün kəlmeyi-şəhadətin qəlbimizdə yer etməsi zəruridir. Kəlmeyi-tövhid onun tələbinə görə yaşayanların qəlbində özünə yer edər. Əgər insan Allahın əmr və qadağalarına qarşı laqeyd, yaxud da uzaq olarsa, onunla kəlmeyi-tövhid arasında uçurum yaranar. Qul qəflətdən uzaqlaşmadıqca bu uçurum daha da dərinləşər və ikisi arasındakı əlaqə sadəcə hərflərlə tələffüzdən ibarət qalar. Bu da böyük zərərdir. Ona görə də həyatımızın hər mərhələsinin və nöqtəsinin kəlmeyi-tövhid istiqamətində olması əbədi səadətimizin ən böyük vəsiləsidir. Ömrümüz boyu kəlmeyi-tövhid çərçivəsində yaşaya bilsək, son dəmdə Haqqa yolçuluq edə bilərik. Çünki dünya həyatında yaşadıqlarımız son nəfəsimizin, son nəfsimiz də axirətdəki halımızın tərcümanıdır.

Yalnız iman, yəni tövhid möhtəvasına girməklə əməllərdən istənilən faydanı əldə etmək olar.

Sedat DEMİR



# Duada Təvəssül

"Təvəssül" lüğətdə "vəsilə etmək", "vəsilə" isə "başqasına yaxınlaşmaq üçün vasitə edilən" mənasına gəlir. Təvəssülün termin mənası "Allah-Təalaya yaxınlaşmaq, ya da bir fayda əldə edib bir zərərin dəf edilməsi məqsədi ilə saleh bir əməli və ya saleh bir insanı vəsilə edərək Allahdan yardım istəməkdir".

Quranda Allaha yaxınlaşmaq üçün vəsilə axtarmaq əmr edilmiş (Maidə 5/35) və insanı Allaha yaxınlaşdıracaq vəsilənin Ona iman edilməsi və Onun razılığına uyğun saleh əməllərin görülməsi olduğu bəyan edilmişdir (Səbə 34/37). Bu ayələrdə təvəssül lüğət mənasında işlədilmişdir. Üzərində ixtilaf edilən isə termin olaraq işlədilən təvəssüldür.

İlk əvvəl qeyd etməliyik ki, dünya və ya axirətlə əlaqəli bir məsələdə olan istəyin və duanın yalnız Allaha ediləcəyi, başqasına edilən duanın caiz olmadığı xüsusunda ixtilaf yoxdur. Yenə "əsmayi-hüsna" və saleh əməllər ilə təvəssülün, yəni dua edən insanın "əsmayi-hüsna" və etdiyi saleh əməlləri vəsilə etməsinin caiz olmasında görüş ayrılığı yoxdur.

İxtilaf saleh kimsələrlə -diri və ya ölü olsun- edilən təvəssül mövzusundadır. Bu mövzuda dörd görüş vardır:

1- Ümumiyyətlə rədd edilməsi,

2- Ümumiyyətlə caiz olması,

3- Təkcə Hz. Peyğəmbərlə (s.ə.s.) caiz olması,

4- Hz. Peyğəmbərlə (s.ə.s) təvəssülün sadəcə o həyatda ikən caiz olması.

Vəfat edən şəxslərin ruhları bərzəx aləmində canlıdır. Qəbir əhli özlərini ziyarət edənləri tanıyır. Həyatdakıların əməl-



ləri onlara göstərildiyi zaman xeyirli əməl gördüklərində Allaha həmd edib sevinirlər və o əməli işləyənlərə dua edirlər. Pis bir əməl gördüklərində belə dua edirlər: *"Allahım, onları itaətə və ibadətə yönəlt. Bizi hidayət etdiyin kimi onları da hidayət et"*. Bu söylədiklərimiz hədislərdə mövcud olub ümmətin icması ilə sabitdir. (İbn Qəyyim əl-Cevziyyə, *Kitabur-ruh*, s. 21-147; Zəbidi, *İthafus-səadə*, XIV, 312-328.) Bir hədisi-şərifdə belə buyurulur: *"Ölü özünü daşıyanı, yuyanı və qəbrə qoyanı tanıyır."* (Əhməd b. Hənbəl, *Müsnəd*, IV, 126, Hədis № 11600.)

Buxarinin rəvayət etdiyi bir hədisi-şərifdə: *"Ölən kimsə dəfn edildikdən sonra camaatın geri dönərkən cıxardıqları ayaq səslərini eşidər"* (Buxari, Cənaiz, 67.) buyurulmuşdur.

Bəziləri təvəssülü bütpərəstlərin duada bütləri vəsilə etməsinə bənzədir və "bu ibadətdir, ibadətsə yalnız nəss ilə bilinər, bu xüsusda isə nəss yoxdur" deyərək rədd edirlər. Təvəssülün caiz olduğuna işarə edən hədislərin sənədini tənqid edir, yaxud da təvil edirlər. Halbuki burada dua Allaha edilir, təsir və güc də Ona nisbət olunur.

Mövzunu məntiqi və nəqli dəlilləri ilə ələ alaq:

Saleh əməlləri vəsilə etmək ilə saleh insanları vəsilə etmək arasında bir fərq yoxdur. Hər ikisində də dua Allaha edilir. "Allahım, filan saleh əməlim hörmətinə, filan saleh əməlim Sənin qatında məqbul isə, Hz. Peyğəmbərə (s.ə.s) olan sevgim hörmətinə" demək caiz isə, "Hz. Peyğəmbər (s.ə.s) hörmətinə" demək nə üçün caiz olmasın? Onları bütpərəstlərə bənzətmək isə xətalıdır, çünki burada hər hansı bir insanı Allaha ortaq etmə, ona ibadət etmə və ya Allah ilə qul arasında bir vasitə görmə yoxdur. Yardım edəcək olan yalnız Allahdır. Duada təvəssülü Allahdan başqasından kömək istəmək kimi qəbul etmək doğru deyil. Çünki təvəssüldə yalnız Allaha əl açılır.

*Bir korun Hz. Peyğəmbərin yanına gəlib gözlərinin açılması üçün dua istəməsi və israr etməsi üzərinə Hz. Peyğəmbər belə dua etməsini tövsiyə edir: "Elə isə get, gözəlcə dəstəmaz al, sonra iki rükət namaz qıl, davamında belə dua et: "Ya Rəbbi! Mən səndən istəyirəm, rəhmət Peyğəmbərin (s.ə.s) ilə Sənə yönəlirəm. Ya Muhamməd (s.ə.s) mən səninlə Rəbbinə yönəlirəm ki, gözlərim açılsın. Ya Rəbbi! Onun şəfaətini və duamı qəbul et." Bu duadan sonra o insanın gözləri açılmışdır.*

Nəqli dəlillərə gəldikdə isə, duaların məqbul olması üçün təvəssül ediləcək xüsuslardan biri də salavati-şərifədir. Necə ki, Hz. Peyğəmbər namazdan sonra Allaha həmd etmədən və Peyğəmbərə salavat gətirmədən dua edən adam görmüş və: *"bu adam tələsdi"*,- buyurdu. Sonra da o adamı yanına çağıraraq *"Dua edəcəyiniz zaman əvvəlcə Allaha həmd-səna edin, sonra Peyğəmbərə salətu-salam gətirin. Daha sonra istədiyiniz kimi dua edin"* (Tirmizi, Dəavat, 64).

Duanın müstəcəb olmasını təmin edən bir başqa vəsilə də əsmayi-hüsnadır. Ayeyi-kərimədə buyurulur:

"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin." (əl-Əraf, 180).

Saleh əməllər çətinlikdən qurtarıb xeyirlərə nail olmaq üçün vəsilədir. Əvvəlki ümmətlərdən səfərə çıxan üç dostun halını bildirən hədisi-şərif bunu izah edir. (Bax. Buxari, Ədəb, 5, Ənbiya, 53; Zikr, 100)

Hz. Peyğəmbərin (s.ə.s) şəxsi ilə təvəssül. Bir korun Hz. Peyğəmbərin yanına gə-

lib gözlərinin açılması üçün dua istəməsi və israr etməsi üzərinə Hz. Peyğəmbər belə dua etməsini tövsiyə edir: *"Elə isə get, gözəlcə dəstəmaz al, sonra iki rükət namaz qıl, davamında belə dua et: "Ya Rəbbi! Mən səndən istəyirəm, rəhmət Peyğəmbərin (s.ə.s) ilə Sənə yönəlirəm. Ya Muhamməd (s.ə.s) mən səninlə Rəbbinə yönəlirəm ki, gözlərim açılsın. Ya Rəbbi! Onun şəfaətini və duamı qəbul et."* Bu duadan sonra o insanın gözləri açılmışdır. (İbn Macə, İqamə, ١٨٩. Həmçinin Hz. Adəmin Hz. Peyğəmbəri vəsilə edərək dua etdiyi haqqında rəvayət üçün bax. Beyhəqi, *Dəlail*, V, 488, 499.)

Digər bir xüsus saleh insanlarla təvəssül məsələsidir. Bunun da caiz olmasına müxtəlif hədislərdən dəlillər var. Ənəs bin Malikdən rəvayət edildiyinə görə qıtlıq zamanında Hz. Ömər Abbas b. Əbdülmüttəlibi (r.a) vəsilə edərək Allahda yağış yağdırmasını istəmişdi: *"Allahım, biz daha əvvəl Peyğəmbərimizi vəsilə edərək Sənə dua edirdik, Sən də bizə yağış yağdırırdın. İndi isə Peyğəmbərin əmisini vəsilə edərək Səndən istəyirik. Bizə yağış ehsan et!"* (Buxari, İstisqa, 3; Ayni, Umdətu`l-Qari, VI, 13).

Bəziləri vəfat etmiş peyğəmbər və salehlərlə təvəssülü, onların ruhaniyyəti ilə təbərrük etməyi tövhid inancındna uzaq olan cahiliyyə müşriklərinin hərəkətinə bənzədirlər. Quranda müşriklərlə əlaqəli olan ayələri təvəssül edənlərə şamil edərək eyni hökmə tabe olduqlarını iddia edirlər.

**"Xəbəriniz olsun, xalis din ancaq Allahındır. Onu tərk edib özlərinə bir qism dostlar (məbudlar) edənlər, onlara (bütlərə) bizi Allaha yaxınlaşdırsınlar deyə qulluq edirik, deyərlər. Doğrusu, Allah ixtilafa düşdükləri şeylərdə aralarında hökm verəcəkdir. Allah şübhəsiz yalançı və inkarçını doğru yola yönəltməz."** (əz-Zumər, 3.) Bu ayəni dəlil və məsnəd alaraq təvəssül edənlərin də müşrik olduqlarını söyləyirlər. Əslində isə onlar bütə tapanlarla ölülərlə təvəssül edənlərin məqsədlərinin bir olduğunu irəli sürərək təvəssül və şəfaəti yanlış dəyərləndirmişlər.

Halbuki Allaha yaxın olan peyğəmbər və salehlərlə təvəssül edərək Ona sığınan möminlərlə müşriklərin arasında heç bir əlaqə yoxdur. Bunların arasındakı bənzərlik səbəbiylə qiyas etmək doğru deyil.

Belə ki, mütəvəssillər (təvəssül edənlər) müşriklərə qiyas edilməz və aralarında bu bariz fərqlər var:

1. Müşriklər Lat, Mənat, Uzza kimi bütləri ilah qəbul edirdilər. Halbuki müsəlmanlar ancaq bir ilaha inanırlar. Onlara görə peyğəmbər peyğəmbərdir, vəli vəlidir. Onları müşriklər kimi ilah görmürlər.
2. Müşriklər o bütlərin ibadətə layiq olduğuna inanırlar. Halbuki müsəlmanlar təvəssül edilənlərin ibadətə layiq olduğuna əsla inanmırlar.
3. Müşriklər o bütlərə ibadət edirdilər. Allah-Təala onların sözlərini belə hekayə edir *"Bizi Allaha yaxınlaşdırsınlar deyə onlara ibadət edirik"*. Halbuki müsəlmanlar Allaha təvəssül edərkən peyğəmbər və salehlərə ibadət etmirlər.



Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

# FİL SURƏSİ

Fil Surəsi Məkkədə nazil olmuşdur, beş ayədir. Bu surə "Əshabi-fil, fil Ordusu" hadisəsindən bəhs edir. Fil ordusu Kəbeyi-Müəzzəməni yıxmaq istədikləri zaman Allah onların hiyləsini başlarına çevirdi, evini onların murdarlığından və azğınlıqlarından qorudu. Dodağı yarıq Əbrəhə ordusu üzərinə ən zəif məxluqlarını göndərdi. Bunlar ayaq və dimdiklərində kiçik daşlar daşıyan quşlar idi. Lakin bu daşlar, öldürücü güllələrdən daha öldürücü və yox edici idi. Nəticədə Uca Allah onları yox edib köklərini kəsdi. Bu mühüm tarixi hadisə kainatın əfəndisi Hz. Muhəmmədin (s.ə.s) doğum ili olan miladi 571-ci ildə meydana gəlmişdir. Surə belədir:

"(Ya Peyğəmbər!) ***Məgər Rəbbinin fil sahiblərinə*** (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn həbəş ordusuna) ***nələr etdiyini görmədinmi?! Məgər*** (Rəbbin) **onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə qatar-qatar quşlar** (əbabil quşları) ***göndərdi.*** (O quşlar) **onlara bişmiş gildən düzəlmiş** (möhkəm xırda) **daşlar atırdı.** (Rəbbin) **onları** (həşərat tərəfindən) **yeyilmiş əkin yarpağına** (saman çöpünə) ***döndərdi!".*** (Fil surəsi, 1-5)

Bəzi dilçi alimlərə görə surədə zikr olunan "əbabil" quşların adıdır. Əslində isə əbabil qruplar halında, dalbadal deməkdir.

Rəvayət edildiyinə görə, Yəmən məliki, dodağıyarıq Əbrəhə Sənada bir məbəd tikdirmişdi və Kəbəyə gələn hacıları oraya cəlb etmək istəyirdi. Bunun üzərinə Kinanə qəbiləsindən bir adam gəlib təhqir olsun deyə gecə məbədin içini murdarladı və binanın divarlarına nəcis sürtüb bulaşdırdı. Əbrəhə bundan hirslənərək Kəbəni yıxmağa and içdi. Fillər üzərində böyük bir ordu ilə Məkkəyə gəldi. Bu fil ordusunun qarşısında da hamısından daha böyük bir fil vardı. Əbrəhə Məkkəyə yaxınlaşdıqda, buranın xalqı, onun ordusundan və zülmündən qorxduqları üçün dağlara qaçdı. Uca Allah Əbrəhə ordusu üzərinə qara quşlar göndərdi. Hər quş biri dimdiyində, ikisi ayaqlarında olmaq üzrə üç daşla gəlmişdi. Həmin daşları fil ordusuna yağdırdılar. Atılan daş adamın başından girir bədənini deşərək aşağıdan çıxırdı. Daşla yaralanan hər kəs cansız vəziyyətdə yerə yıxılırdı. Nəticədə Uca Allah onları məhv edib köklərini kəsdi. Onların bu hekayəsi ibrət alanlar üçün bir ibrət vəsiləsi olmuşdur.

Bu hadisə, Uca Allahın Kəbəyə verdiyi dəyəri və düşmənlərini yox etməklə Qureyşə etdiyi ehsanı göstərər. Bu səbəblə onların Allaha qulluq edib verdiyi nemətlərə şükür etməsi lazım idi. Ayrıca bu hadisədə Allahın düşmənlərindən intiqam almağa qadir olduğunu göstərən maraqlı və xariqülədə dəlillər də var. Əbu Həyyan belə deyir: Bu böyük düşmənin, Peyğəmbərin (s.ə.s) mübarək doğum ilində Kəbəni yıxmasına mane olunması, Rəsulullahın (s.ə.s) peyğəmbərliyini göstərən, peyğəmbərlikdən əvvəl baş verən xariqülədə hadisədir. Çünki quşların bu cür axın etməsi peyğəmbərlərin gəlməsindən əvvəl baş verən möcüzə və xariqülədə hadisələrdəndir. Allah Fil ordusunu ən zəif əsgərləri ilə, yəni insan öldürməyə adəti olmayan quşlarla yox etmişdir.

i.f.d. Elşad MAHMUDOV




## İnsanların zəruri ehtiyacı və ortaq dəyəri

# TÖVHİD

Tövhid kəlməsi ərəb dilində nəyinsə bir olduğuna hökm etmək, onu bir olaraq bilmək, tək olan, birlik, birləmək kimi mənalara gəlir. Bir termin olaraq isə tövhid çox geniş və böyük mənanı ifadə edir. Belə ki, ən başda tövhid mütləq mənada uca yaradıcı olaraq qəbul etdiyimiz Allahın varlığına, mövcudluğuna, birliyinə, tək və şəriksiz olduğuna, heç bir şeyə möhtac olmadığına, hər şeyin ona möhtac olduğuna, doğmadığına və doğulmadığına, heç bir ortağı və bənzəri olmadığına hər hansı bir şəkk və şübhə etmədən iman gətirməkdir. Tövhid həmçinin bütün üstün, uca və kamil xüsusiyyətlərin Allahda toplandığını, bütün mükəmməl isim və sifətlərin, bütün gözəlliklərin və yaxşıların onda cəmləşdiyini bilmək, heç bir əskikliyin, naqisliyin və nöqsanın onda mövcud olmadığına etiqad etməkdir. Tövhid tək yaradıcı, xaliq olaraq, bütün varlıqların, bütün məxluqatın, canlıların, kainatın, göylərin, yerin və aləmlərin rəbbi, istisnasız olaraq hər bir şeyə qadir olan və hər şeyə gücü çatan, hər şeyi edə bilən, hər şeyi bilən, hər şeyi görən, hidayət verən, ədalət, rəhmət, mərhəmət və hikmət sahibi Allah-Təalanın varlığını qəbul etmək, ibadəti yalnız və yalnız tək və şəriksiz olan Allaha aid etmək, başqa sözlə desək, tövhidin əsas prinsipi olan -**Lə ilahə illəllah, Muhammədun rəsulullah**- kəlmələrində ifadə edildiyi kimi, Allahdan başqa, tanrı, ilah və ya ibadətə layiq, haqq məbud yoxdur və Muhamməd onun bəndəsi, elçisi, rəsuludur -həqiqətini qəbul edərək səmimi qəlbdən təsdiqləməkdir. Yuxarıda qeyd etdiyimiz tövhid kəlməsi İslam dini ilə eyniləşmişdir və İslamın bütün iman və ibadət prinsiplərini özündə cəm edir.

Tövhid yaradılışın və var olmanın ən əhəmiyyətli hadisəsidir. İnsanlar hər şeydən əvvəl bu inancı və bu düşüncəni qəbul edib-etməməkdən məsuliyyət daşıyırlar. Tövhidin son və kamil kitabı olan müqəddəs Qurani-Kərimin üzərində ən çox dayandığı ümdə və başlıca mövzu

da elə budur. Həmçinin Həzrət Muhammədin peyğəmbərliyi və təbliği də, ilk növbədə insanların şirk və şirk üzərində qurulmuş digər batil inanclarını, dinlərini və həyat tərzlərini tərk edərək, tövhid dinini qəbul etmələri ilə əlaqədardır.

Tövhidin ziddi şirkdir. İnsanlar ya tövhid dininə, ya da şirk dinlərinə inanırlar. Buna görə də bəşər ailəsinin ən birinci məsələsi və bir nömrəli fəaliyyəti "tövhid" və "şirk" arasındakı seçimdir. Azad və hür iradəsi öz əlində olan insan bu seçimə görə seçdiyi həyat tərzinin nəticələrini özü görür, seçdiyi həyat tərzi ya onun lehinə və ya əleyhinə olur.

Tövhid və ya şəhadət kəlməsinin ikinci hissəsi Həzrət Muhammədin Allahın Rəsulu (elçisi) olduğunu qəbul və elan etməkdir. Bunun mənası "O, Allah tərəfindən göndərilmiş bir elçidir" olmaqla bərabər eyni zamanda Onu Allahın son Rəsulu olaraq tanıdıqdan sonra, onunla göndərilənlərin, onun təbliğ etdiklərinin, onun dediklərinin doğru olduğunu da qəbul etmək deməkdir. Bu, həmçinin onun, açıqlayıb göstərdiyi inanc sistemini və bu sistemə bağlı olan həyat tərzini seçmək, onun təbliğ etdiyi ilahi dəyərləri həyat prinsipi halına gətirmək mənasına da gəlir. Allah-Təala hökmlərini və bəndələrindən istədiklərini rəsulları (elçiləri) vasitəsilə insanlara bildirmişdir.

Tövhid və ya şəhadət kəliməsini söyləyənlər Allahın hökmlərini qəbul edənlər və onları həyatlarında tətbiq etməyə qərar verənlərdir. Yaddan çıxarılmamalıdır ki, hər iki cümlə də ayrı-ayrılıqda İslamın və buna inanmağı ifadə etməyin xülasəsidir və İslam sadəcə bu cümlələri dil ilə təkrar etməkdən ibarət deyil. Bunlar İslama giriş və İslama girdikdən sonra İslama aid olan nə varsa hamısını əvvəlcədən və toplu şəkildə qəbul etməyi elan etməkdir. Bu mənada tövhid kəlməsi İslamın giriş qapısıdır desək, yanlış olmaz. Bu qapıdan içəri girənlər, içəridə olan hər bir prinsipi, hər bir iman əsasını, hər bir qulluq şərtini qəbul etmiş, öhdəsinə götürmüş və istisnasız olaraq həyatının bütün sahələrində tətbiq etməyə söz vermişlər. Tövhid o qədər saf, o qədər təmiz, həssas və bir o qədər də möhtəşəm bir inanc sistemdir ki, tövhid düşüncəsində edilən hətta çox cüzi xurafatlar və bidətlər bu inanc sistemini qəbul edən insanların etiqadına, zehniyyətinə, irfanına və dindarlığına, əxlaqına, bütün həyatına, bir sözlə, dünyasına və axirətinə çox pis, mənfi təsir göstərə bilər, fəlakətli nəticələrə gətirib çıxara bilər.

*Tövhidin ziddi şirkdir. İnsanlar ya tövhid dininə, ya da şirk dinlərinə inanırlar. Buna görə də bəşər ailəsinin ən birinci məsələsi və bir nömrəli fəaliyyəti "tövhid" və "şirk" arasındakı seçimdir. Azad və hür iradəsi öz əlində olan insan bu seçimə görə seçdiyi həyat tərzinin nəticələrini özü görür, seçdiyi həyat tərzi ya onun lehinə və ya əleyhinə olur.*

Tövhid həqiqəti və gerçəyi eyni zamanda insanlığın, bəşriyyətin cahanşümül, ümumbəşəri, universal və dəyişməz dəyərlər sistemi, dəyərlər bütünü olan böyük bir həyat sistemidir. Elə bir həyat sistemi, nizam və mədəniyyət ki, burada kainat və bəşəriyyətlə bağlı istisnasız olaraq bütün sahələr və bütün mövzular öz yerini tapmışdır. Tövhiddə kainatın və bəşər övladının cavab tapa bilmədiyi və ya bilməyəcəyi heç bir mövzu və məsələ yoxdur. Tövhid kainat və insanlıqla bağlı hər şeyi etmiş, edir və etməyə davam edəcəkdir. Buna görə də tövhid bəşər övladının zəruri ehtiyacı və ortaq dəyəridir.

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com



# Qəbir və Türbə Ziyarəti Ədəbləri

Dinimizdə qəbir ziyarəti ölümü və axirəti xatırlatdığı üçün kişilərə müstəhəb, fitnədən əmin olunduğu təqdirdə qadınlar üçün də caizdir (icazəlidir). Hədisi-şərifdə Hz.Peyğəmbər (s.ə.s) qəbir ziyarətini tövsiyə edərək belə buyurur: *"Qəbirləri ziyarət edin, çünki bu, sizə axirəti xatırladır"* (İbn Macə).

Hz. Peyğəmbər (s.ə.s) hələ qədər inancının kökləşmədiyi və cahiliyyə vərdişlərinin davam etdiyi dövrdə qəbir ziyarətini bir zaman üçün qadağan etmiş, ancaq daha sonra bunu sərbəst buraxmışdır. İslamın başlanğıcında Hz. Peyğəmbərin qəbir ziyarətlərini qadağan etməsinin səbəbi bu idi. Yəhudi və xristianlar əziz saydıqları kimsələrin qəbirlərini ibadət yeri halına gətirmişdilər. Cahiliyyə dövründə qəbirlərə səcdə edilir, bütlərə sitayiş olunurdu.

Bütpərəstlik böyük tanınan kəslərin heykəllərinə saygı və təzim ilə başlamış, nəticədə də bu saygı bütlərə ibadətə çevrilmişdi. İslam dininin qayəsi tövhid əqidəsini (Allahı yeganə xaliq və yaradıcı kimi tanıyıb, yalnız Ona ibadət etməyi qəlblərə yerləşdirmək idi. Hz. Peyğəmbər (s.ə.s) İslamın ilk illərində şirkdən yeni qurtulmuş əshabına təhlükəli gördüyü qəbir ziyarətini qadağan etmiş, fəqət tövhid inancı qəlblərə tamamilə yerləşib müsəlmanlar tərəfindən tam şəkildə anlaşıldıqdan, dərk edildikdən sonra qəbir ziyarətinə icazə vermişdi. Bu qadağa; *"Bir vaxtlar sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim. Artıq qəbirləri ziyarət edin. Çünki bu ziyarət sizə axirəti -ölümü xatırladır"* (Müslim, Tirmizi, Əbu Davud, Nəsəi, Muvatta) hədisi-şərifi ilə qaldırıldı. İstər yaxın kimsələrin qəbirləri olsun, istərsə də hər hansı saleh insanların türbələri olsun, əsasən ibrət almaq məqsədi ilə ziyarət edilməlidir. Buna görə dinimiz qəbir ziyarəti üçün bəzi qaydalar qoymuşdur.

Qəbirləri ziyarət edərkən İslamın əsaslarına və tövhid inancına uyğun olmayan, etiqadi baxımdan yanlış olan bəzi davranış və hərəkətlərdən uzaq durmaq lazımdır. ***Qəbirlərdə və ziyarətgahlarda yatan kimsələri başər üstü varlıqlar olaraq görmək, bu zatların duaları qəbul etdiyinə, ilah kimi qüdrətinin olduğuna***



*inanmaq, bəzi istək və ehtiyacları Allaha deyil, onlara ərz etmək, onlardan yardım istəmək və mədəd ummaq;* bu məqsədlə qəbir və ziyarətgahlara (türbələrə) *əski parçaları bağlamaq, şam yandırmaq, qurban aparıb kəsmək* və s. hərəkətlərlə onlardan yardım diləmək tövhid dini olan İslamla əsla uyğun gəlməməkdədir. ***Bu cür davranış və hərəkətlər şirkdir, böyük günahdır***. Bizim borcumuz istər yaxınlarımızın qəbri olsun, istərsə də salehlərin türbəsi, üsul və ədəbinə görə ziyarət edib işlədiyimiz xeyir, etdiyimiz ibadət, oxuduğumuz fatihənin savabından onların ruhlarına bağışlamaq və onlara dua etməkdir.

Qəbir və ziyarətgahlar ziyarət edilərkən bidət və xürafələrə yer verməməli, din-sünnə ölçülərinə uymalı, türbələrdə ağla, məntiqə və dinimizin qaydalarına uyğun olmayan davranışlardan qaçmalıyıq.

**Qəbir, ziyarətgah və türbələr ziyarət edilərkən diqqət olunacaq mühüm cəhətlərdən bəziləri belədir:** Qəbir və ziyarətgahlara; ***nəzir demək olmaz, qurban kəsilməz, şam yandırılmaz, əski-parça bağlanmaz, daş və ya pul yapışdırılmaz, əyilərək və iməkləyərək gedilməz və girilməz, pul atılmaz, yeyiləcək şeylər qoyulmaz, türbə və qəbiristanlıq divarlarına əl-üz sürtmək olmaz, şəfa məqsədilə orada olan daşları bədənə sürtmək olmaz, türbə və qəbirlərdən yardım və şəfa istənməz, türbə və qəbirlərin ətrafında təvaf edilməz, türbələrin içində yatılmaz, qəbir və ya türbəyə yalvarılmaz, ağlayıb fəryad edilməz, qəbir və ya ziyarətgaha qurban adanmaz (ya filankəs baba, filan işim düzəlsin, övladım olsun, oğlum əsgərlikdən qayıtsın, balam universitetə qəbul olsun, qızım ərə getsin sənə qurban kəsərəm və s. kimi, məqsədlərlə hansısa qəbirdən, övliya və ya babalardan bunları istəmək böyük bir yanlışdır, bunlar böyük günahdır, şirkdir.) Ziyarətgahlarda qurban niyyəti ilə hər hansı nəzir heyvan da kəsilməz.*** Bunlar imanı təhlükəyə salan günahlardır və dinimiz tərəfindən qətiyyən qadağan edilmişdir.

Türbə və qəbirlərdən mədəd ummaq, ölən kimsədən yardım istəmək İslama və İslam inancına uyğun deyil. Hər hansı bir zatın, Allah dostunun qəbri və ya türbəsi

ziyarət edilə bilər, ruhuna fatihə oxunar. Hüzurunda Allaha dua edilər. Ancaq ziyarətgah dediyimiz belə yerlərdə dəfn olunmuş kimsədən "ya filankəs baba, filan işimi düzəlt və s." kimi sözlərlərlə yardım və ya şəfa gözləmək doğru deyildir. Yardım və şəfa yalnız Allahdan istənməlidir. Belə mübarək zatlar, saleh kimsələr, edilən dualarda sadəcə olaraq vəsilə oluna bilərlər. Biz sadəcə olaraq belə kimsələrin yaxşı insan ola biləcəyini düşünərək, hüsnüzənlə qəbirlərini ziyarət etməliyik. Bu hüsnü-zənnimizlə də edəcəyimiz duamızda: "Ya Rəbb! Ziyarətini etdiyimiz bu zatın Sənin yanında etibarının, hörmətinin olduğunu düşünürəm. Əgər bu hüsnüzənnim doğrudursa, bu zatın xətri üçün, saleh əməlləri hörmətinə mənim bu duamı qəbul eylə, məni bu çətinlikdən qurtar!" şəklində dua edilə bilər. Belə bir vəziyyətdə ölüdən heç bir şey istəmiş olmuruq, yenə Rəbbimizdən istəyirik.

Qəbir, türbə və ziyarətgahları ziyarət əsnasında üsul və ədəbə diqqət etmək lazımdır. İstər qadınların, istərsə də kişilərin İslam ədəbinə uyğun olmayan paltar və geyimlərlə buralara girmələri doğru deyil. Həddi aşmamaq şərtilə qadınların qəbir ziyarəti caizdir. Bu zaman da birinci növbədə geyimlərinə diqqət göstərəcəklər, qəbiristanlıqda və qəbir başında yüksək səslə ağlamaq, saç-baş yolmaq, ağı demək və qəbirlərə aşırı dərəcədə sayğı göstərmək kimi fitnə qorxusu olmadığı və uyğun olmayan hərəkətlərdən uzaq durulduğu təqdirdə qadınların qəbir ziyarəti mümkün və caizdir. Çünki Peyğəmbərimiz uşağının qəbri başında ağlayan bir qadına səbirli olmağı tövsiyə etmiş, ona ziyarət etməyi qadağan etməmişdir (Buxari, Müslim).

Ölümü xatırlamaq, axirət həyatını düşünmək və dua etmək üçün qəbir ziyarəti sünnədir. Fəqət əvvəl də qeyd etdiyimiz kimi, bu gün ölkəmizdə və bir çox yerlərdə türbə və qəbir ziyarətində xətalı davranışlara rast gəlinməkdə, Allah üçün ziyarət edilən türbədə Quran oxuyub dualar və istiğfarlar edərək ölüyə yardım edilməli olduğu halda, tam əksinə, ölüdən yardım istəyənlərlə rastlaşırıq. Halbuki qəbir və türbələr ölüdən hər hansı bir şey istəmək üçün ziyarət edilməməlidir.

Son olaraq; Qəbir ziyarətində bu ədəblərə də diqqət etmək gözəldir: qəbir ziyarəti əsnasında dəstəmazlı olmaq, qəbiristanlıqda səssizliyi qorumaq, haray, səs-küy çıxarmamaq lazımdır. Ölülərə salam verilməli, onlar üçün xeyir-dua edilməlidir. Bərəkət məqsədilə Quran oxuyaraq savabını onların ruhuna göndərmək gözəl hesab olunur. Hz. Peyğəmbərimiz (s.ə.s) qəbirləri ziyarət edərkən belə deyərdi: ***"Əs-sələmu aleykum ya əhləd-diyəri minəl-muminin və innə inşəallahu bikum ləhiqun, əs-əlullahə lənə və ləkumul-afiyəh."*** (Ey möminlər diyarının sakinləri, salam olsun sizlərə. Bizlər də inşallah sizə qovuşacağıq. Allah Təala-dan bizim və sizin üçün afiyət, axirətlə əlaqəli qorxu və sıxıntılardan qurtuluş diləyirəm.) (Müslim, Nəsəi, İbn Macə, Əhməd).

Hədis alimi İmam Nəvəvi, İmam Şafeinin bu sözünü nəql edir: "Qəbirin yanında ölüyə bərəkət olsun deyə Qurandan ayə və surələr oxumaq müstəhəbdir (gözəl əməldir). Quranın hamısının oxunması isə daha gözəldir". (Riyazus-Salihin, s. 293).

Əhməd bin Hənbəl də Rəsulullah (s.ə.s)-in: "*Yasin, Quranın qəlbidir. Hər kim onu Allahın razılığını və axirət yurdunu istəmək üçün oxuyarsa, şübhəsiz, günahları bağışlanar. Ölülərinizə də Yasin surəsini oxuyun*" hədisini rəvayət etmiş və qəbir üstündə Quran oxumaqda bir eyib yoxdur demişdir.

Qəbirlər ibrət almaq məqsədilə ziyarət edilir. Ona görə də hər insan tez ya da gec qəbrə gedəcəyini düşünərək, qəbirlərdən və qəbir ziyarətlərindən ibrət almalıdır.

# BUYRUĞUN TUT RƏHMANIN

Buyruğun tut Rəhmanın
Tövhidə gəl, tövhidə!
Təzələnsin imanın
Tövhidə gəl tövhidə!

Yaban yerlərə baxma
Canın odlara yaxma
Hər gördüyünə axma
Tövhidə gəl, tövhidə!

Masivadan gözün yum
Nə umarsan Haqdan um
Getsin könüldən hümum
Tövhidə gəl, tövhidə!

Sən səni nə sanırsın
Faniyə aldanırsın
Uş bir gün oyanırsın
Tövhidə gəl, tövhidə!

Qoyub quru təqlidi
Candan eylə tövhidi
Bulmağa hər ümmidi
Tövhidə gəl, tövhidə!

Surətə tapma sakın
Məna yüzünə baxın
Olmağa Haqqa yaxın
Tövhidə gəl, tövhidə!

Sakın nəfsə inanma
Kəndini bildim sanma
Şirk atəşinə yanma
Tövhidə gəl, tövhidə!

Olmaz sevdalardan keç
Mevti anarmısın heç?
Yolçu gedər qalma gec
Tövhidə gəl, tövhidə!

Əziz Mahmud Hüdayi



Araşdırma
Firdovsi HƏSƏNOV



# DÜNYADA NƏ QƏDƏR MÜSƏLMAN YAŞAYIR?

Ümumi statistik məlumatlara görə dünyanın 200-dən çox ölkəsində 1.57 milyard müsəlman yaşayır. Bu, dünyanın 6.8 milyard əhalisinin təxminən 23 faizi deməkdir.

**QİTƏLƏR ARASINDA ƏN ÇOX MÜSƏLMAN ASİYADADIR**

**İslamın ürəyinin atdığı yerin Orta Şərq olmasına baxmayaraq müsəlman əhalinin ən geniş şəkildə Asiya qitəsində yaşadığını ortaya qoyan araşdırmaya görə, dünyadakı müsəlman əhalinin yüzdə 60-ından çoxu Asiya qitəsində yaşayır.**

**MÜSƏLMANLARIN AZLIQ TƏŞKİL ETDİYİ ÖLKƏLƏR**

Araşdırma nəticələrinə görə, dünyadakı müsəlman əhalinin 5-də birini meydana gətirən 317 milyon İslam mənsubu müsəlmanların azlıqda olduğu ölkələrdə yaşayır. Azlıq təşkil edən müsəlmanların 4-də 3-ü Hindistan (161 milyon), Efiopiya (28 milyon), Çin (22 milyon), Rusiya (16 milyon), Tanzaniyada (13 milyon) məskunlaşıb.

**AVROPA-dakı MÜSƏLMANLARIN SAYI NƏ QƏDƏRDİR?**

Araşdırmanın digər təəccüblü nəticələrinə görə, Avropa qitəsinin cəmi əhalisinin 5-də birini müsəlmanlar təşkil edir. Avropada yaşayan müsəlman sayını 38 milyon olaraq göstərən araşdırmada 4 milyon müsəlmanın Almaniyada yaşadığı məlumdur. Araşdırma nəticələrinə görə, Fransada yaşayan müsəlmanların sayının Almaniyadakılardan daha az olduğunu, buna qarşı bu ölkədəki müsəlman əhalinin ölkənin ümumi əhaliyə nisbətinin Almaniyadakından daha yüksək olduğunu göstərir.

Regionlar üzrə müsəlmanlar bu cür bölünüb: ən çox müsəlman Asiyada yaşayır (1 milyard 179 milyon), sonra Afrika (518 milyondan çox), Avropa (təqribən 50 milyon), Şimali və Cənubi Amerika (10 milyondan çox), Avstraliya və Okeaniya (0,7 milyon). Müsəlmanlar 39 ölkədə əhalinin böyük əksəriyyətini (80%-ni), 13 ölkədə isə əksəriyyət (50-79%) təşkil edir. 15 ölkədə müsəlmanlar mühüm rol oynayırlar (20-49%). İslam dininə sitaiş edənlər 33 dövlətdə azlıq şəklində yaşayırlar (5-19%). 57 dövlətdə isə ayrı-ayrı İslam icmaları formasında təmsil olunur (1%-dən az) .

Müsəlmanların mütləq sayı üzrə ölkələrin qabaqcıl onluğu belədir:
İndoneziya – 221 milyon

Hindistan – 177 milyon
Pakistan – 176 milyon
Banqladeş – 144 milyondan çox
Nigeriya – 88 milyondan çox
Misir - 79 milyondan çox
İran -77 milyondan çox
Türkiyə - 74 milyondan çox
Efiopiya - 46 milyondan çox
Əlcəzair - 36 milyondan çox

Sudan, Çin, İraq, Mərakeş, Əfqanıstan, Səudiyyə Ərəbistanı, Özbəkistan, Yəmən və Tanzaniyada hər birində 20-30 milyon müsəlman yaşayır.

Ölkədə yaşayan müsəlmanların ümumi sayına görə (18 milyon 500 min insan) dünyada 21-ci yerdə Rusiya dayanır. Rusiyada müsəlmanların sayının artmasına səbəb Rusiyada yaşayan müsəlman ailələri arasında yüksək doğum göstəricisi və İslam ölkələri (Orta Asiya, Qazaxıstan və Azərbaycan) nümayəndələrinin buraya miqrasiyasıdır.

**ƏN ÇOX MÜSƏLMAN OLAN ÖLKƏ**

Dünyada müsəlman əhalinin ən sıx olduğu ölkə İndoneziyadır.Araşdırmada bu ölkədə yaşayan müsəlman əhalinin bütün dünya əhalisinin yüzdə 13-ünü təşkil etdiyi ortaya çıxıb.

**İNDONEZİYA NECƏ İSLAMLAŞDI?**

Könlü İslamın gözəllikləriylə yoğurulmuş, parça ticarəti ilə məşğul olan müsəlman bir tacir günlərin birində parçalarını bir gəmiyə yükləyərək İndoneziyaya gedir və orada məskunlaşaraq ticarətinə davam edir.

Gətirdiyi keyfiyyətli parçalar xalqın tələb etdiyi cinsdən idi. Özü isə qənaət sahibi bir mömin olduğu üçün: "qoy qazancım az olsun, lakin təmiz və halal olsun" düşüncəsində idi. Bu səbəblə bir malı dəyərindən baha satmağa əsla meyil etmirmiş. Qısa zamanda zəngin olmağın xəyal və ehtirasına qapılmadan həyatını davam etdirir.

İşə gec gəldiyi bir gün satıcının satdığı mallardan çox yüksək qazanc əldə etdiyini görür və aralarında bu dialoq cərəyan edir:

- Hansı parçadan satdın?
- Bu parçadan.
- Neçəyə satdın?
- On axçaya.
- Necə yəni? Beş axçalıq parçanı on axçaya necə satdın? Alan adamın haqqına girdik. Görsən tanıyarsanmı həmin adamı?
- Bəli, tanıyaram!
- Elə isə dərhal get və o müştərini tapıb bura gətir. Vaxt itirmədən onunla halallaşmalıyam.

Dəzgahdar gedir və müştərini tapıb gətirir. Dükan sahibi müştərini qarşısında görən kimi ondan halallıq istəyir və satıcının aldığı pulun artığını da müştəriyə uzadır. Müştəri isə daha əvvəl heç qarşılaşmadığı bu gözəl rəftar qarşısında böyük bir heyrət içində qalır. Öz-özünə; "Haqqını halal et!" cümləsinin mənasını anlamağa çalışır.

Bu hadisə tezliklə dildən-dilə gəzir. Çox keçmədən də kralın qulağına çatır. Nəhayət, kral parça tacirini saraya çağırtdırır və:

"- Sizin etdiyiniz bu hərəkəti daha əvvəl biz nə eşitdik, nə də gördük!.. Sizin bu halınız bizim üçün müəmma oldu. Bunu izah edərsinizmi?", -deyə soruşur.

Tacir isə ədəblə:

"- Mən müsəlmanam. İslamda mülk Allahındır. Qul yalnız əmanətçidir. Həmçinin İslamda haqsız qazanc, faiz, istismar, gabnı-fahiş (aldatmaq surətiylə dəyərindən çox baha satmaq) və cəmiyyətin zərərinə olan bütün satışlar qadağandır. Bu alverdə isə müştərinin mənə haqqı keçmişdi. Bu səbəblə qazancıma haram qarışmışdı. Mən yalnız bir səhvi düzəltdim", -deyərək cavab verir.

Bu cavabdan razı qalan kral:

"- İslam nədir, müsəlman olmaq üçün nə lazımdır?" kimi sualları ardarda yağdırmağa başlayır.

Tacir də bütün sualları bir-bir, şirin dillə cavablandırır.

Belə bir dinin varlığını bu vəsiləylə ilk dəfə eşidən kral, çox vaxt keçirmədən İslam ilə şərəflənir. Daha sonra qısa bir müddət ərzində xalq da müsəlman olur.

Aqil ƏLİYEV
aaqil77@mail.ru

# Rəsulullahın vəsiyyəti



İrbad bin Sariyə radiyallahu anhu belə nəql edir: - *Rəsulullah (s.ə.s) bir gün bizə namaz qıldırdı, sonra duyğu yüklü bir vəz və nəsihət etdi. O söhbətin təsirindən qəlblərimiz ürpərdi, gözlərimiz yaşardı. Dedik ki: " Ya Rəsulallah! Bu, vida edib ayrılan bir şəxsin söhbətinə bənzədi, bizə bəzi vəsiyyətlər edə bilərsinizmi?" Buyurdu ki: " Sizə Allahdan qorxmağınızı, başınızda həbəşli bir kölə də olsa ona itaət etməyinizi tövsiyə edirəm. Sizdən uzun ömrü olub yaşayanlar çox böyük ayrılıqlar və ixtilaflar görəcək. Sizə mənim və məndən sonra hidayət üzərində olan raşidi xəlifələrin sunnəsini tövsiyə edirəm. Sünnəmdən bərk yapışın. Qətiyyən sonradan ortaya çıxarılmış bidətlərin ardınca düşməyin. Hər bidət zəlalətdir."* (Əbu Davud, Sünnə, 6, Tirmizi, Elm,16, İbni Macə, Müqəddimə, 6)

Bu hədis ən mötəbər hədis kitablarının üçündə rəvayət edilmişdir. Digər qaynaqlarda da yer almışdır. Bu baxımdan hədisin mətnində mübahisəli hər hansı bir mövzu yoxdur. Eyni zamanda İslamda hədisin və sünnənin möhtəşəm mövqeyini göstərməkdə, sünnələrin bizim üçün nə qədər önəmli olduğunu, bu gün hədissiz və sünnəsiz islami anlayışı müdafiə edənlərə də bir dəlildir.

Burada Rəsulullah (s.ə.s) tərəfindən biz ümmətə bir neçə vəsiyyət edilmişdir.

Birinci vəsiyyət: Təqva sahibi ol!

Təqva Allah qorxusunu əsas alaraq islami yaşam tərzidir. Haramlara bulaşmadan, cəhənnəm əhli olma qorxusuyla ya-

şamaq və nemətlərə nankorluq etməmək təqvadır. İbadətlərə ciddi yanaşmaq da təqvadan irəli gəlir. İnsanların haqlarına təcavüz etməmək, dünyəviləşib maddiyyat qarşısında əyilməmək və şeytanın hiylələrinə qarşı müqavimət göstərmək də təqvadır.

İkinci vəsiyyət: İtaət et!

Burada qeyd olunan hədisdən də anlaşılır ki, rəhbər şəxslərin dərisinin rəngi, yəni zahiri görünüşü və hansı ailəyə mənsub olması önəmli deyil. Önəmli olan müsəlmanlardan olması, insanların dininə, haqq və hürriyyətlərinə diqqət və ehtiram göstərməsidir. Belə olduğu təqdirdə hər bir müsəlman öz rəhbərinə itaət etməlidir.

Üçüncü vəsiyyət: İxtilaf və ayrılıqdan çəkinmək.

İxtilaf da digər imtahanlar kimi bu ümmətin ən böyük imtahanıdır. İslamın ilk dövründə müsəlmanlar cəbhədə öz malları və qanları ilə imtahan verirdilər. Bugünkü müsəlmanlar isə öz ölkəsində, evində, hətta öz məscidində ixtilaflarla üzləşirlər. Ayıq-sayıq olub imtahanı qazanmaq məcburiyyətindəyik. Bu imtahanı qazanmaq üçün də ardarda sayılan bu prinsiplərə ciddi yanaşmalıyıq. Elə bundan sonra qeyd olunan vəsiyyətlər bu imtahanı qazanmağa bizə kömək edir.

Dördüncü vəsiyyət: Sünnədən möhkəm yapış!

Rəsulullah (s.ə.s) sağ ikən, onun ətrafında birləşənlər nicat taparkən, ona müxalif olanlar həlak oldular. Ondan sonra da yenə qurtarıcı odur. O, özü aramızda olmasa da sünnəsi, yəni tutduğu yolu aramızdadır.Onun sünnəsi bizə vəsiyyət etdiyi hər şeydir. Quran, Əhli-Beyt və hədisləri. Bunlar bizə Rəsulullahın (s.ə.s) müqəddəs əmanətləridir.

Beşinci vəsiyyət: Raşidi xəlifələrə itaət.

Rəsulullahın (s.ə.s) sünnəsini eynilə yaşadan dörd xəlifə, Hz. Əbu Bəkr, Hz. Ömər, Hz. Osman və Hz. Əli (Allah onlardan razı olsun) bu ümmətin ən fəzilətli

*Təqva Allah qorxusunu əsas alaraq islami yaşam tərzidir. Haramlara bulaşmadan, cəhənnəm əhli olma qorxusuyla yaşamaq və nemətlərə nankorluq etməmək təqvadır. İbadətlərə ciddi yanaşmaq da təqvadan irəli gəlir. İnsanların haqlarına təcavüz etməmək, dünyəviləşib maddiyyat qarşısında əyilməmək və şeytanın hiylələrinə qarşı müqavimət göstərmək də təqvadır.*

şəxsləri olmuşlar. Onlar peyğəmbərlər kimi məsum olmasa da hər işdə Rəsulullahı əsas götürərək qərar vermişlər. Onların verdikləri qərarlar Bədir səhabələrinin və digər mücahid səhabələrin ittifaqına əsaslanırdı. Əshabın ittifaqı da xəta üzərində birləşməzdi. Bunun üçün həm sünnəni onlar anladığı kimi anlamaq, həm də onların izindən getmək bir nicat yoludur.

Altıncı vəsiyyət: Bidətlərdən çəkinin!

Bidət mövzusu hər əsrdə müzakirə və mübahisə olunan bir mövzu olmuşdur. Deyə bilərik ki, əslində dində olmayan və sonradan dinə əlavə olunan hər şey bidətdir. Din Allah-Təala tərəfindən gəldiyinə görə, qulların bura hər hansı uyğun gördükləri bir şey əlavə etmələri təhlükəlidir. Çünki dinə sonradan əlavə olunan hər hansı bir şey əvvəldən olan bir sistemi dəyişəcəkdir. Bunun üçün Rəsulullahın (s.ə.s) vəsiyyəti sonda dini qorumaqla bitmişdir.

Xülasə olaraq da deyə bilərik ki, fitnələr, ixtilaflar mütləq olacaqdır. Mömin üçün bütün bu xəstəliklərə çarə ilk nəslin xilas olduğu yoldur. Bu da Quran və Sünnəyə səmimiyyətlə sarılmaqdır.



Mübariz ƏLİOĞLU

# İSLAMİ NİZAM ELMDƏDİR-2

*Qeyd: Keçən sayımızda mövzu ilə bağlı verilən 1858-ci il tarix 1582 olmalı idi. Texniki səhvə görə üzr istəyirik.*

İlahi izinlə zəif cüssəli mal-mülk və məqam sahibi olmayan Allaha (c.c) qəti bir imanla inanmış dünyaya dəyər verməyən bir dərviş bütün mənliyi ilə ayağa duraraq bu rəzalətin önünə doğruldu.

Hz. Ömər (r.a) soyundan gələn İmam Rəbbani Əhmədi Faruki Sərhəndi həzrətləri bütün mənalı həyatını İslamın Hind torpağında yenidən dirçəlməsi və ayaqda durması mübarizəsinə sərf etdi. Qəlbini bürümüş xilaskarlıq elmi ilə Hz. Məhəmmədin (s.ə.s) sünnəsinin dirildilməsi naminə böyük bir mücadiləyə, mübarizəyə qalxdı. Həm də Hindistanda o qədər alimin olmasına baxmayaraq, bu silahsız və kimsəsiz kişi, iqtidarın qeyri-məşru işlərinə inanılmaz müxalifət sərgiləyərək söhbət halqasında yetişdirdiyi insanlar və irşad naminə yazdığı məktubları sayəsində hökümdar və onun əlaltılarının bütün səylərinə baxmayaraq İslamın qəlbləri aydınladan dirilik ruhunu hindistanlı müsəlmanların mənliyinə hakim edə bildi. Bu mübarizə ilə Əkbər şahın dini-ilahisi, adamları və çevrəsi tərəfindən uydurulan bütün bidətlər məğlubiyyətə düçar oldu. Bu gün artıq Hindistanda olan 200 milyona yaxın müsəlmanın mübarək dinimizi yaşaması, İmam Rəbbani həzrətlərininin elmi ilə gerçəkləşdirdiyi haqq mücadiləsinin parlaq nəticəsidir.

Təəssüflə qeyd etməliyik ki, informasiya imkanlarının geniş şəkildə yayıldığı zamanəmizdə İmam Rəbbani həzrətlərinin şəxsiyyətinə münasibət birmənalı deyil. Xüsusən də təsəvvüflə əlaqədar mürşid-mürid münasibətləri, mənəvi hal və həssasiyyətlər bidət və sapıqlıq olaraq



dəyər qazanmaqda və imamın bənzəri olmayan elm mücadiləsinə kölgə salınmaqdadır. Sanki bunları yüz illər öncə görən böyük alimin açıqlaması ona qarşı irəli sürülən bütün iddialara tutarlı cavab verməkdədir:

İmam Rəbbani həzrətləri belə buyurur: “Din üç əsasdan ibarətdir! – Elm, əməl və ixlas. Bunlar yerinə oturdulmadıqca dinin tələblərini layiqincə yaşamaq mümkün deyil. Dinin tələblərinin yerinə yetirilməsi nəticəsində dünyəvi və axirətə aid olan bütün səadətlərin üstündə olan, Allah rizası gerçəkləşir. Ona görə də din dünya və axirətə aid bütün səadətlərin təminatçısıdır və dinin xaricində ehtiyac duyacağımız faydalı heç bir şey yoxdur”.

Sufilərin tətbiqat sahəsi olan təriqət və həqiqət isə dinin üçüncü parçası olan ixlasın tamamlayıcıları olmaqla dinimizə xidmət etməkdədir. Təriqət və həqiqətin məqsədi ancaq dini tamamlamaqdır. Allaha (c.c) olan mənəvi yolçuluq əsnasında sufilikdə və iç aləmdə yaşanan mənəvi hallar, mərifətlər əldə edilməsi gərəkən əsl məqsəd deyildir. Bunlar ancaq təriqət mənsublarının tərbiyəsində istifadə edilən görünüş və xəyallardan ibarətdir. Bunların hamısını aşaraq riza məqamına nail olmaq lazımdır. Çünki təriqət və həqiqət məqamlarının keçilməsindəki əsas məqsəd riza məqamına yol açan ixlası əldə etməkdən ibarətdir.

Bir ilahi lütf olaraq elmi, qeyrəti, əzmi ilə dünyanın, şeytanın, nəfsin qurduğu cəhalət divarlarını yararaq qəlblərə həqiqət pəncərələrini açan İmam Rəbbani həzrətləri **“(Ya Peyğəmbər!) And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. (Allah) onların ürəklərində olanı (sənə sadiq qalacaqlarını, əhdə vəfa edəcəklərini) bildi, onlara (öz dərgahından) arxayınlıq (rahatlıq, səbr, səbat, mənəvi qüvvə) göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə (Xeybərin fəthi) ilə mükafatlandırdı.”** (Əl fəth /18) ayəyi-kəriməsinin məna dərinliyini mübarizəsi ilə Hindistan müsəlmanlarına yaşatmış oldu. Bu gün yenə də elmsizliyin, qara cəhalətin tüğyan etdiyi dünyamızda qana boyanmış İslam coğrafiyası maddi və mənəvi diriliş sorağındadır. Allah Rəsulunun, Onun şanlı əshabının, böyük İslam alimlərinin və İmam Rəbbani kimi dövrümüzə yaxın olan İslam mücahidlərinin elmləri və əməlləri ilə sərgiləmiş olduqları qurtuluş nümunələri bizləri daima ümidləndirən məqamlarındandır. Rəbbimiz cümləmizi bu böyüklər kimi təmiz bir zəka, təslim olmuş bir nəfs, elm ilə əməl edilən sağlam bir təqva bütünlüyü iqlimində mübarək dinimizi ona aid olmayan bütün mənfiliklərdən təmizləyib Onu Haqqı ilə ayaqda tutan qullarından eyləsin.

Amin

*İmam Rəbbani həzrətləri belə buyurur:*
*“Din üç əsasdan ibarətdir! – Elm, əməl və ixlas. Bunlar yerinə oturdulmadıqca dinin tələblərini layiqincə yaşamaq mümkün deyil. Dinin tələblərinin yerinə yetirilməsi nəticəsində dünyəvi və axirətə aid olan bütün səadətlərin üstündə olan, Allah rizası gerçəkləşir. Ona görə də din dünya və axirətə aid bütün səadətlərin təminatçısıdır və dinin xaricində ehtiyac duyacağımız faydalı heç bir şey yoxdur”.*

Fuad QULİYEV
fuadguliyev@hotmail.com

# BİR AYƏ

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ

***"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!) O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"*** İxlas surəsi, 112/1-4

Tövhid anlayışını ən vəciz bir şəkildə izah edən "İxlas" surəsinin ayələri Allah-Təalanın vəsflərindən bəhs edir. Surənin eniş səbəbi olaraq fərqli hadisələr göstərilir. Surənin Məkkədə endiyini irəli sürənlər müşriklərin Hz. Peyğəmbərin (s.ə.s) yanına gələrək "Bizə rəbbindən bəhs et!" dediklərini və bunun üzərinə surənin endirildiyini xəbər verən rəvayətləri dəlil göstərirlər. Mədinədə nazil olduğunu iddia edənlər isə yəhudilərlə xristianların Hz. Peyğəmbərə (s.ə.s) soruşduqları Allah haqqındakı suallara cavab olaraq Cəbrayılın (ə.s) Allah Rəsuluna gələrək "Qul hüvallahu əhəd" oxuduğunu bildirən rəvayətləri dəlil göstərmişdirlər. "İxlas" surəsinin fəzilətləri haqqında Allah Rəsulu (s.ə.s) belə buyurmuşdur: "Canım qüdrət əlində olan Allaha and olsun ki, bu surə Quranın üçdə birinə bərabərdir." (Buxari, Tövhid, 1). Bu surəni sevdiyi üçün hər namazda oxuyan bir səhabəyə Rəsulullah (s.ə.s) "onu sevmən səni cənnətə aparar" müjdəsini vermişdir. (Tirmizi, Fədailul-Quran, 11)

Surə İslamın əsası olan tövhid (Allahın təkliyi) prinsipini qısa məzmunda ifadə etdiyi və Allahı tanıtdığı üçün eyni zamanda Peyğəmbərimizin də buyurduqlarına istinadən son dərəcə əhəmiyyətli bir yerə malik olduğunu görmək mümkündür.

Təfsir alimləri bu surədə Allahın təkliyini ifadə edən "əhəd" termini ilə var olması baxımından heç nəyə və heç kimə möhtac olmadığını izah edən "səməd" termini üzərində durmuşdurlar. Belə ki, "əhəd" vəsfinin istisnalar xaricində Allahdan başqasına nisbət edilərək istifadə edilməsinin doğru olmadığını qeyd etmək lazımdır.

"Səməd" ifadəsi "hər kəsin ona ehtiyacını ərz etdiyi, ancaq özünün kimsəyə ehtiyacı olmadığı" mənasında işlədilir. (Rağib əl-İsfəhani, Müfrədatul-Quran, "smd" maddəsi)

Surədəki kontekstə görə "səməd" ifadəsi "əhəd" isminin açıqlamasıdır. Davamındakı "doğmamış və doğulmamış" mənasındakı ayə isə "səməd" ifadəsinin açıqlamasıdır. Təfsir alimi Təbəri "özündən başqasına ibadət edilməyə layiq olmayan tək məbud" ifadəsini işlədir bu məqamda.

Ayənin "o doğulmamışdır" mənasındakı ikinci hissəsi Allah-Təalanın doğum yoluyla bir ana və ya atadan, bir kökdən meydana gəlmədiyini ifadə edir. Çünki doğulan hər şey sonradan meydana gəlir, hansı ki, Allah əzəl vəsfinə malikdir, yəni varlığının başlanğıcı yoxdur. Başlanğıcı olan varlığın da sonunun olması lazımdır. Allah üçün belə bir xüsusiyyətdən bəhs etmək mümkün deyildir. Həmçinin "onun tayı-bərabəri yoxdur" ifadəsi də heç bir varlığın onunla müqayisə edilə bilməyəcəyinin açıq ifadəsidir. Belə ki, yalnız sonradan yaradılanlar arasında müqayisə aparmaq mümkündür. Allah isə heç bir varlığa tay deyildir.

Səfa MURADOV
sefamuradov@gmail.com

# BİR HƏDİS

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ:
"أَفْضَلُ الذِّكْرِ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَفْضَلُ الدُّعَاءِ الْحَمْدُ لِلَّهِ"

Cabir (r.a) belə demişdir: Mən, Rəsulullahın (s.ə.s) belə buyurduğunu eşitdim: "***Zikr(lər)in ən fəzilətlisi `la ilahə illəllah`dır. Duanın ən fəzilətlisi isə `əlhəmdülillah`dır.***" (Tirmizi, Dəavat, 9; İbn Macə, Ədəb, 55)

Kəlmeyi-tövhid dediyimiz və Allahdan başqa ilah yoxdur mənasına gələn la ilahə illəllah sözü imanın əsasıdır. Kəlmeyi-tövhidə inanmadan mömin olmaq mümkün deyil. Kəlmeyi-tövhidi dili ilə iqrar edib, qəlbi ilə təsdiq edən bir insan, kainatda yalnız Allahın var olduğuna, Ondan başqa ibadətə layiq bir varlıq olmadığına inandığını və sadəcə Onun qarşısında səcdəyə qapandığını ifadə etmiş olur. Peyğəmbərlər insanlara kəlmeyi-tövhidi öyrətmək üçün göndərilmiş və bu yolda canlarını belə fəda etmişdirlər. Şəhidlər kəlmeyi-tövhid uğrunda heç tərəddüd etmədən son nəfəslərinə qədər savaşmışdırlar. La ilahə iləllah zikri bu və buna bənzər səbəblərdən dolayı ən üstün zikirlərdəndir. Alimlərdən bəziləri kəlmeyi-tövhidin insanın daxilindəki pis xüsusiyyətləri və nöqsanları yox etmə gücünə sahib olduğunu və bu səbəblə də ən fəzlilətli zikir sayıldığını söyləmişdirlər.

La ilahə iləllah zikrinin ən fəzilətli zikir olduğunu buyuran Rəsulullah (s.ə.s), bu zikir sayəsində insanın qəlbinə yalnız Allahın hakim olmağa layiq olduğuna işarə etmişdir. Yəni `La` (Yox) deyərək bu zikri dilində təkrar edən bir bəndə həyatına, ruhuna və qəlbinə Allahdan başqa heç kimin sahib olmayacağını və qəlbinin yalnız Allahın adıyla döyünəcəyini ifadə etmiş olur. Özünü Allaha xas qılmış bir qəlb heç şübhəsiz ki, şirkdən, xətadan, nöqsandan, günahdan və hər cür şeytani vəsvəsələrdən uzaq qalar. Allahdan başqa hər şeyə yox deməklə qəlbin qapılarını yalnız Allaha açmaq eyni zamanda mənəvi bir dərəcəyə yüksəlmək deməkdir. Qəlbini madiyyatdan uzaq tutmaqla mənəviyyata nail olan bir bəndə Allahın razı qaldığı bəndələr zümrəsindəndir.

Kəlmeyi-tövhidin məkanı qəlb olduğuna görə yalnız dil ilə iqrar etmək yetərli deyildir. La ilahə illəllah zikrini dili ilə söyləyib lakin bu zikrin həqiqətini dərk etməyən bir şəxs tövhid əqidəsinə tam sahib ola bilməz. Ona görə də tövhid əqidəsinə tam sahib olmaq üçün dilin zikrini qəlbin təsdiq etməsi və dilin zikrinə müxalifət etməməsi şərtdir.

Ən fəzilətli dua olan əlhəmdülillah sözünü söyləyən kimsə, ona bəxş etdiyi saysız nemətlər səbəbiylə cani qəlbdən Allah Təalanı tərifləməkdədir. Həmdin içində şükür də vardır. Daha doğrusu həmd şükrün başıdır. Allaha həmd etməyən bir kimsə eyni zamanda Ona şükür etmir deməkdir. Xüsusiylə bir şey yeyilib içildiyi, Allahın lütf etdiyi hər hansı bir nemətindən faydalanıldğı zaman əlhəmdülillah deyilməlidir.



# XEYİRLİ ÜMMƏT

Ayeyi-kərimələrdə buyurulur:

كُنْتُمْ خَيْرَ اُمَّةٍ اُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنْكَرِ

**"(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız"** (Ali-İmran, 110).

وَمَنْ اَحْسَنُ قَوْلًا مِمَّنْ دَعَآ اِلَى اللّٰهِ وَعَمِلَ صَالِحًا وَقَالَ اِنَّنِي مِنَ الْمُسْلِمِينَ

**"(Xalqı) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!"** (əl-Fussilət, 33).

Əsil müsəlman İslamı şəxsiyyət və xarakteri ilə təmsil edə bilən insandır. İslam mömindən hər zaman **"şəxsiyyət"** olmasını istəyir. Dini təmsil edə bilmək də yalnız gözəl şəxsiyyətlə mümkündür.

**Rəsulullah** ﷺ dini təbliğ etməzdən əvvəl öz şəxsiyyətini təsdiq etdirmişdir. Bir gün Səfa təpəsinə çıxaraq qüreyşliləri başına topladı. Allah Rəsulu ﷺ yüksək bir qayanın üzərindən onlara xitab etdi:

*"Ey qüreyşlilər!*

*Mən sizə desəm ki, bu dağın arxasında, yaxud bu vadidə üzərinizə hücum edəcək və mallarınızı qarət edəcək düşmən atlıları var, mənə inanarsınızmı?"*

Onlar heç bir tərəddüd etmədən:

"Bəli, inanarıq. Çünki sən əl-Əmin və əs-Siddiqsən. Bugünə qədər yalan danışdığını heç eşitmədik. Səni həmişə dürüst adam kimi tanımışıq",- dedilər... (Bax. Buxari, Təfsir, 26; Müslim, İman, 348-355; Əhməd, I, 281-307)

Rəsulullah ﷺ ora toplaşan hər kəsə şəxsiyyətini təsdiq etdirdi. Onların təsdiqindən sonra isə ilahi həqiqətləri təbliğ etməyə başladı.

İslam bu ali şəxsiyyətlə təbliğ olunduğu müddətdə əsri-səadət, xüləfayi-raşidin dövrü, Əməvilərin Ömər bin Əbdüləziz dövrü, Əndəlüsün ilk üç yüz ili və Osmanlının ilk üç əsrində möhtəşəm fəzilətlər mədəniyyəti inşa edildi.

İnsanlıqda mədəniyyət, əxlaqda mədəniyyət, elmdə mədəniyyət, ictimai və iqtisadi həyatda mədəniyyət, memarlıqda, ədəbiyyatda müstəsna bir mədəniyyət ortaya qoyuldu.

Bu mədəniyyətin insanları necə idilər? Bir neçə misal:

## Həzrət Ömər ؓ...

**Həzrət Ömər** iman ilə şərəflənməmişdən əvvəl mərhəmətdən məhrum, haqq və hüquq tanımayan cahiliyyə insan-

larından biri idi. İmanla şərəflǝndikdən sonra isə incə ruhlu, qayğıkeş, hikmət əhli, ədalət abidəsi, nəcib şəxsiyyətə çevrildi. İslamdan əvvəlki sərt və ötkəm təbiətli Ömər əriyərək yerinə gözü yaşlı, könlü şəfqət və mərhəmətlə dolu, qarışqanı belə incitməkdən çəkinən, daima ümmətin səadətini fikirləşən, ciddi məsuliyyət şüuruna sahib **"Həzrət Ömər"** gəldi.

"Fərat çayı sahilində bir quzu itsə, Allahın məni hesaba çəkməsindən qorxuram"[1] deyərək daim özünü hesaba çəkdi. Gecələr çiynində ərzaq çuvalı ilə küçələri gəzib zəiflərin, möhtacların təsəllisi oldu. Yetimlərin, kimsəsizlərin kimsəsi oldu. Qırıq könülləri təsəlli etmədən, onların göz yaşlarını silmədən, onlara təbəssüm etdirmədən qəlbi rahatlıq tapmadı.

**Ömər bin Əbdüləziz -rəhmətullahi əleyh-...**

**Həzrət Ömərin** nəvəsi olan, İslam tarixində beşinci raşid xəlifə sayılan Ömər bin Əbdüləzizin könül dünyasını əks etdirən bir xatirəsini xanımı Fatimə belə dilə gətirir:

"Bir gün Ömər bin Əbdüləzizin yanına girdim. Namazgahında oturmuşdu. Əlini alnına dayayıb, durmadan ağlayır, göz yaşları yanaqlarını isladırdı. Ondan nə üçün bu halda olduğunu soruşdum. Cavabı belə oldu:

"Fatimə, bu ümmətin ən ağır yükü mənim çiynimdədir. Ümmətin acları, kasıblar, dərman tapmayan xəstələr, əyninə geyinməyə paltar tapmayanlar, boynubükük yetimlər, dul qadınlar, haqqını tələb edə bilməyən məzlumlar, küfr və qürbət diyarındakı müsəlman əsirlər, ehtiyaclarını təmin etmək üçün işləməyə taqəti qalmayan möhtac qocalar, külfəti böyük olan kasıb ailə başçıları...

Yaxın və uzaq diyarlarda bu vəziyyətdə olan mömin qardaşlarımın halını fikirləşdikcə, yükümün altında əzilirəm. Sabah hesab günündə Rəbbim məni bun-

*Ümmətin dərdini çəkən, onların səadəti üçün öz rahatlığını tərk edən fədakar könüllərlə müstəsna fəzilətlər mədəniyyəti inşa edildi. Həmin mədəniyyətdə zənginlər zəkatlarını verəcək yoxsul tapmadılar. Çünki onlar "qonşusu ac ikən tox yata bilməyən" xeyirli ümmət idilər.*



*Allah-Təala:*
*"Öz əlinizlə özünüzü təhlükəyə atmayın!.." (əl-Bəqərə, 195) buyurdu. Yəni dünyanın bərbəzəyinə və ehtişamına aldanaraq Allahın rizasına nail olma cəhdindən uzaqlaşanlara xəbərdarlıq edirdi. Ona görə səhabeyi-kiram ta Çinə qədər gedib çıxmışdı. Ömər bin Əbdüləziz zamanında İspaniyaya ayaq basıldı. Uqbə bin Nafi Qayravana qədər irəlilədi.*

dan hesaba çəkərsə, Rəsulullah ﷺ onlara görə məni məsul görərsə, mən nə cavab verərəm?!" (İbn Kəsir, 9/201).

Məhz ümmətin dərdini çəkən, onların səadəti üçün öz rahatlığını tərk edən fədakar könüllərlə müstəsna fəzilətlər mədəniyyəti inşa edildi. Həmin mədəniyyətdə zənginlər zəkatlarını verəcək yoxsul tapmadılar. Çünki onlar "qonşusu ac ikən tox yata bilməyən" xeyirli ümmət idilər.

**Həmin xeyirli ümmət din qardaşlığı və qayğıkeşlikdə İslam şəxsiyyəti sərgilədi:**

**Həzrət Mövlana** nə gözəl buyurur:

*"**Şəms** -quddisə sirruh- mənə bir şey öyrətdi:*

*"Dünyada bircə mömin üşüyürsə, sənin isinməyə haqqın yoxdur!".*

*Bilirəm ki, yer üzündə üşüyən möminlər var və mən artıq isinə bilmirəm!.."*

**Əbul-Həsən Haraqani həzrətləri** də belə buyurur:

"Türküstandan Şama qədər olan ərazidə bir din qardaşımın barmağına batan tikan mənim barmağıma batmışdır. Birinin ayağına dəyən daş mənim ayağımı ağrıtmışdır. Bir qəlbdə hüzn varsa, o qəlb mənim qəlbimdir".

Bəli, **"xeyirli ümmət"** belə insanlardan ibarət idi…

**Hər bir mədəniyyət öz insan modelini formalaşdırır. Həmin insan modeli də mənsub olduğu mədəniyyətin xarakteri ilə bir ahəng təşkil edir.**

**İslam mədəniyyəti bəşər tarixinin yaşamış olduğu bir zirvədir. Bunun səbəbi sağlam bəşəri fitrətin ilahi elm, irfan və hikmətlə təchiz edilməsidir. Millətimizin fitri istedadı ilə mənəvi füyuzatın qucaqlaşaraq eyniləşməsi mükəmməl mədəniyyət nümunəsi meydana gətirmişdir. Bu mədəniyyət nümunəsinin tarixi adı şübhəsiz ki, "Osmanlı"dır.**

Həqiqətən **Osmanlı** maddi memarlıqla mənəvi memarlığı birlikdə yürüdən, ərazilərin fəthini sırf könülləri fəth etmək naminə həyata keçirən, kamil dünyagörüşünə malik şəxslərdən ibarət idi.

Osmanlının vəli banisi **Osman Qazinin** oğlu **Orxan Qaziyə** və onun şəxsində gələcəyin bütün dövlət adamlarına etdiyi nəsihətlər bunun bir ifadəsidir. O böyük qazi deyirdi:

*"Oğul, bil ki, bizim yolumuz Allah yoludur, məqsədimiz də Onun dinini yaymaqdır. Davamız quru bir qovğa və cahangirlik davası deyil, "ilayi-kəlimətullah"dır, yəni Allahın dinini ucaltmaqdır!.."*

**Orxan Qazi** də: "Mürüvvət qəzadan əfzəldir!",- deyərək əsl fəthi könüllərdə gerçəkləşdirməyə üstünlük verirdi. Zahiri fütuhatı könüllərin fəthi ilə əbədiləşdirirdi. Fəth olunan yerlərə ilk növbədə könül əhli olan, saleh möminləri məskunlaşdırırdı. Onların nümunəvi yaşayışı və halları ilə təbliğləri bölgə xalqının hidayətinə vəsilə olurdu.

Oğlu **Murada** belə vəsiyyət edirdi:

***"Osmanlıya iki qitə üzərində hökmdar olmaq kifayət etməz! Çünki ilayi-kəlimətullah davası iki qitəyə sığmayacaq qədər böyük davadır!".***

Bu vəsiyyəti dinləyən **Sultan Murad** Avropaya sıçradı, ta **Kosovaya** qədər irəlilədi.



Birinci Murad xan nə üçün Bursanın o qədər gözəllikləri, rahatlıqları ola-ola özünə əziyyət verib Kosovaya gedib çıxmışdı? Özünü hansı məqsədə qurban verdi?

Əlbəttə ki, Həzrət Peyğəmbərə xeyirli ümmət ola bilmək, o bəxtiyar möminlərin arasına daxil ola bilmək, xeyrə dəvət edən ümmət ola bilmək üçün. Allahın bizə "örnək nəsil" olaraq təqdim etdiyi **ənsar** və **mühacir**lərin izindən getmək üçün...

Necə ki, əshabi-kiram Mədinə xurmalıqlarını tərk edib, ta Səmərqəndə, hətta Çinə yollanmışdı. Çünki Allah-Təala:

**"Öz əlinizlə özünüzü təhlükəyə atmayın!.."** (əl-Bəqərə, 195) buyururdu. Yəni dünyanın bərbəzəyinə və ehtişamına aldanaraq Allahın rizasına nail olma cəhdindən uzaqlaşanlara xəbərdarlıq edirdi. Ona görə səhabeyi-kiram ta Çinə qədər gedib çıxmışdı. **Ömər bin Əbdüləziz** zamanında İspaniyaya ayaq basıldı. **Uqbə bin Nafi** Qayravana qədər irəlilədi.Qəlbindəki iman həyəcanını ifadə edərək belə hayqırdı:

"Ya Rəbb, əgər bu okean olmasaydı, Sənin yolunda cihad edərək qarşıma çıxan torpaqları fəthə davam edərdim".

Bütün bu fədakarlıqlar **"özünü təhlükəyə atmama"** təlaşının təzahürü idi.

Məhz bu ruhla dünyadakı rahatlığını tərk edib, Allah yolunda səy göstərən **Sultan Murad**ın açdığı cığırla gedənlər də fəth olunan bölgələrə məskunlaşdılar. **Bosniya**da "xeyirli ümmət" meydana gəldi. Buranın xalqı can-dildən səmimi müsəlman oldu.

Xülasə, əcdadımızın bütün dərdi "ilayi-kəlimətullah" idi. İnsanlığı İslamın səadət və hüzuruyla tanış etmək idi. Onlar haqqa və xeyrə çağırırdılar. İnsanlığın əbədi qurtuluşu üçün çırpınırdılar.

**Fateh Sultan Mehmed xan** Trabzon Rum İmperiyası üzərinə səfərə çıxmışdı. Şəhərə arxadan hücum etmək üçün yolu dağlıq və meşəlik ərazidən keçirdi. Bəzən baltaçılar öndən gedərək ordu üçün yol açırdı. Yolun əlverişsiz olduğu bir yerdə Fatehin atı büdrədi. Fateh yanındakı qayadan tutub müvazinətini saxlamağa çalışarkən əlləri qanadı. Onunla birlikdə səfərdə iştirak edən və bu mənzərəni müşahidə edən **Uzun Həsən**in anası **Sara Xatın** fürsətdən istifadə edərək:

*Süleymaniyyə Camesinə baxanda əllərini səmaya açaraq dua edən bir insan silueti görərsiniz. Bu, daşa əks olunmuş bir könül əsəridir... Maddəni məna ilə sintez edən mədəniyyətimizin şahəsəridir. Həmin "xeyirli ümmət" başqalarının evini kölgədə qoyacaq, günəşin qarşısını kəsəcək ev inşa etməzdi. Heç kim başqa birinin mənzərəsinin önünə keçməzdi. Bu gün isə yüksək binalar, hətta göydələnlər sanki ruhsuz şəhərlərin məzar daşlarını xatırladır.*

"Oğul, xan oğlu xansan! Böyük hökmdarsan. Trabzon kimi kiçik bir qala üçün bu qədər əziyyətə qatlanmağın rəvadırmı?",- dedi.

Uzun Həsən Trabzon Rum imperatoru ilə qohum idi və ona görə də anasını Fatehə elçi göndərmişdi ki, onu bu səfərdən daşındırsın.

Yaralı əllərindən qan axan Fateh yerindən doğrularaq belə dedi:

***"Ey yaşlı ana, elə bilmə ki, çəkdiyimiz bu qədər zəhmət quru bir torpaq parçası ələ keçirmək üçündür. Bilmiş ol ki, bütün bu əziyyətlər Allahın dininə xidmət üçündür. İnsanların hidayətinə nail olmaq üçündür. Sabah Allahın hüzurunda üzümüz qara olmasın deyədir. Əlimizdə İslamı təbliğ və ucaltmaq imkanları ola-ola, əziyyətə qatlanmayıb nəfsimizin rahatlığını tərcih etsək, bizə qazi deyilməsi rəvadırmı? Əhli-küfrü İslamla tanış etməsək, onların azğınlıqlarına mane olmasaq, ilahi hüzura hansı üzlə çıxarıq?!".***

Məhz həmin "xeyirli ümmət" fərdiyyətçi zehniyyətin müsəlmana yaraşmadığını, İslam insanının ictimailəşməli olduğunu, könlünün bütün cahanı əhatə etməsinin lüzumuna dair canlı nümunə oldular. Çünki müsəlman dünyanın gedişatından özünü məsul bilməlidir.

Onlar "xeyirli ümmət"in yetişdirdiyi örnək şəxsiyyətlər idilər. O örnək şəxsiyyətlər həyatın hər mərhələsində İslam şəxsiyyətini nümayiş etdirdilər.

**Həmin xeyirli ümmət memarlıq sahəsində İslam şəxsiyyəti sərgilədi:**

Məsələn, Süleymaniyyə Camesinə baxanda əllərini səmaya açaraq dua edən bir insan silueti görərsiniz. Bu, daşa əks olunmuş bir könül əsəridir... Maddəni məna ilə sintez edən mədəniyyətimizin şahəsəridir.

Həmin "xeyirli ümmət" başqalarının evini kölgədə qoyacaq, günəşin qarşısını kəsəcək ev inşa etməzdi. Heç kim başqa birinin mənzərəsinin önünə keçməzdi. Bu gün isə yüksək binalar, hətta göydələnlər sanki ruhsuz şəhərlərin məzar daşlarını xatırladır.

Memarlıq nöqteyi-nəzərindən hansısa bir şahəsərin hər xətti, hər cizgisi, hər ünsürü onun mükəmməlliyini əks etdirdiyi kimi bir mədəniyyətin də hər sahəsi eynilə belədir. Bizim mədəniyyətin mərkəzi **"insan"** olduğu üçün ondakı mükəmməlliklərin baş tacı da meydana çıxardığı **"insan modeli"**dir.

**Xeyirli ümmət insanlıqda İslam şəxsiyyəti sərgilədi:**

Bir evdə xəstə olanda pəncərənin önünə qırmızı saxsı qoyulardı. Səyyar satıcılar belə oradan səssiz keçər, məhəllənin uşaqları da narahat etməmək üçün başqa məhəllələrdə oynayardılar.

Onların bu könül tərbiyəsi hansı təlim sisteminin əsəri idi? Bu tərbiyəni zəmanəmizdə hansı pedaqoq, hansı psixoloq, hansısosial antropoloq verə bilər?..

Bu gün toylarda, bayramlarda havaya atılan fişənglərlə, gurultuya səbəb olan partlayıcılarla bir qrup insanın əyləncəsi üçün -o gurultudan narahat olan körpələr, hamilələr, xəstələr, yas sahibləri düşünülmədən- bütün cəmiyyətin haqqına girilir.



Halbuki əcdadımız olan "xeyirli ümmət" bir qarışqanı belə incitməkdən çəkinən həssas ruhlu insanlar idi.

Zikrinə mane olmamaq üçün bir gülü belə qopartmağa qıymayan incə qəlbli **Hüdayilərimiz,** bir qarışqaya belə şəfqət nəzəriylə baxan və "*Yaradılanı sevəriz, Yaradandan ötrü*" deyən dərin duyğulu **Yunuslarımız** vardı.

Bizim **Sinanlarımız, Qarahisarilərimiz, Füzulilərimiz** vardı. Müsəlmanın könül dünyasının gözəlliyini, estetikasını, zərifliyini, ehtişamını bütün dünyaya əks etdirən abidə şəxsiyyətlərimiz vardı.

**Bu millət Mövlanaların, Yunusların, Gilanilərin, Nəqşbəndilərin, Hüdayilərin, Fatehlərin, Ağşəmsəddinlərin, Yavuzların nəslidir. Bizim mədəniyyətimiz fəzilətlər mədəniyyəti idi. Biz də həmin mədəniyyətin bugünkü davamçısı olmaq məcburiyyətindəyik.**

**Arif Nihat Asya**nın "Nət"ində dediyi kimi:

*Ürəklərdən daşsın*
*Yenə imanlar!*
***İtri** bəstələsin təkbirini,*
***Övliya** oxusun Quranlar!*
*Və Quranı göz nuruyla çoxaltsın*
***Qayışzadə Osman**lar!*
*Nətini **Qalib** yazsın,*
*Mövludunu **Süleyman**lar!*
*Sütunları, kəmərləri, qübbələriylə,*
*Geri gəlsin **Sinan**lar!..*

Tarix boyu o xeyirli ümmət varlığını davam etdirdiyi müddətdə daima cəmiyyət səadət və hüzur içində yaşadı.

Bu gün isə qəlblərə və zehinlərə **liberal** sistemin "qoy etsin, qoy keçsin, qarışma" anlayışı nəticəsində nəfsə yol açan axirətsiz dünya anlayışı təlqin olunur.

Dünyəvi imkanların zirvədə olduğu zamanədə yaşayırıq. Lakin ruhlar xəstə, könüllər acdır. Mənəvi aclıq səbəbindən bəşəriyyət pərişan haldadır...

Halbuki əsri-səadətə baxdığımız zaman dünyəvi imkansızlıqlara rəğmən hər hansı bir ruhi böhranla qarşılaşmırıq.

Çünki onlar əsl hüzur və səadətin mənasını qavramışdılar. Əsl həyatın axirət həyatı olduğunu idrak etmişdilər..

Bu gün yenə "əsri-səadət" ümməti kimi "xeyirli ümmət" olmağa cəhd etmək məcburiyyətindəyik...

**Rəsulullah** ﷺ belə buyurur:



*"Ümmətim yağışa bənzəyir, əvvəlinin, yoxsa axırının xeyirli olduğu bilinməz"* (Tirmizi, Ədəb, 81).

Allah-Təala hər birimizə bu bərəkətli yağışın xeyirli bir damlası ola bilməyi nəsib etsin!

Haqq-Təala ayeyi-kərimədə buyurur:

**"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olarlar…"** (əl-Maidə, 54).

Ümmət olaraq qeyri-müslimlərə və din düşmənlərinə qarşı daim izzətli və vüqarlı olmaq, İslam şəxsiyyəti, müsəlman duruşu sərgiləmək məcburiyyətindəyik.

Allah-Təala ibadətdə belə bizdən şəxsiyyət istəyir. Bizə namazın hər rükətində oxuduğumuz Fatihədə belə buyurur:

صِرَاطَ الَّذِينَ اَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ

**"Bizi doğru (düz) yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!"** (əl-Fatihə, 6-7).

Bu ayeyi-kərimələr bizə bir müsəlmanın sahib olacağı şəxsiyyət və xarakteri xatırladır. Müsəlmanın hər xüsusda öz könül iqlimində yaşamasının zərurətini bildirir.

**Rəsulullah** ﷺ Bəni-İsrailə bənzəməyək deyə 10 Məhərrəm orucunda belə bir gün əlavə etmək surətiylə İslamın izzət və şərəfini qorudu, dinin etibarını zədələməməyə diqqət yetirdi. …

Təəssüflər olsun ki, bu gün qlobal çapda baş verən mədəni istila və kapitalist, materialist, liberal zehniyyətin mənəvi dəyərlərimiz və eyni zamanda şəxsiyyətimiz üzərində səbəb olduğu böyük təxribat hər kəsə məlumdur...

Televizorun nəfsaniyyəti təhrik edən təlqinləri, internetin yanlış ünvanları, aldadıcı reklam və modaların mənfi şərtləndirmələri yetişməkdə olan yeni nəsilləri bir növ qlobal mədəniyyətin barmağında oynatdığı robota çevirir. Bizim insanımızı alır, daxili dünyasını boşaldır, öz dəyərlərini hiyləgərcəsinə ona yeridir və başqa dünyaların insanına çevirir.

Yeni nəsillər eqoist və mənfəətpərəst cəmiyyət kimi yetişdirilir. İmanlar zəifləyir, əxlaq və fəzilət duyğuları zay olur, mərhəmət, şəfqət və insanlığa əlvida deyilərək eynilə bir robot kimi duyğusuz və nadan insan modeli ortaya qoyulur. Cəmiyyətdə mənəvi hüzur və səadətin yolları sanki şüşə qırıqları ilə dolur. Mənəvi hüzurumuza zəhər saçılır.

Təəssüf ki, bu gün cəmiyyət mənəvi cəhətdən səyyar xəstəxanaya bənzəyir. Epidemiyaya çevrilən fəsadın qarşısını almaq, bu təhlükəli gedişat qarşısında dirənə bilmək və İslam şəxsiyyətini mühafizə edərək müsəlmana yaraşan bir duruş sərgiləyə bilmək üçün bu gün könül aləmimizi inkişaf etdirərək mənəvi dəyərlərimizdən daha möhkəm yapışmaq məcburiyyətindəyik.

**Allah-Təala lütf-kərəmi ilə hər birimizə yaxşılığı əmr edib pislikdən çəkindirən "xeyirli ümmət" ola bilməyi ehsan eyləsin.**

**Amin!..**

---

1 İbn Əbi Şeybə, *Musannəf*, VIII, 153.

Xidmət Allahın bəndələrdən tələb etdiyi ictimai qulluq vəzifəsidir. Çünki mömin zəmanənin gedişatından özünü məsul bilməlidir.

Musa Əfəndi belə buyurmuşdur:
"Bir çoxları namaz qılmaq və oruc tutmaqla dini vəzifələrini ədа etdiklərini sanaraq rahatlıq tapırlar. Lakin bu kifayət etmir. Allah-Təalanın əmrlərinə riayət və təzimlə yanaşı Onun məxluqatına da şəfqətli olmaq lazımdır. Bunu da yalnız fədakarlıq və səmimi xidmətlə əldə etmək olar. Ağıl sahibi olan hər bir müsəlmanın fərzləri əda edib, haramlardan uzaqlaşdıqdan sonra diqqət edəcəyi xüsus müsəlmanlığa, cəmiyyətə və bütün məxluqata xidmət edərək faydalı olmaqdır... Çünki bütün bunlar fərzləri tamamlayıcıdır, həmçinin Rəsuli-Əkrəmin Sünneyi-Səniyyəsindəndir".

Allah-Təalaya xidmət əmr və qadağalarına sevərək riayət və Allah kəlməsini ucaltmaq yolunda əmək sərf etməklə olur.

Həzrət Peyğəmbərə (s.ə.s) xidmət Ona can-dildən məhəbbət bəsləyərək Sünneyi-Səniyyəsi üzrə yaşamaq və yaşatmaqla olur.

İslam böyüklərinə xidmət sevgi, vəfa və sədaqətlə olur.

Nürəddin RÜSTƏMOV
nureddin.rustemov@box.az



# ƏMƏLLƏRİ YANDIRAN ATƏŞ - HƏSƏD

İslam dini insanların bir-birilərinə həsəd aparmalarını, kin bəsləmələrini qadağan etmiş, müsəlmanın digər müsəlman qardaşını sevməsinin vacibliyini vurğulamış və bunu imanın ayrılmaz bir parçası hesab etmişdir. Çünki möminin imanı yalnız bu formada kamilləşər. Qurani-Kərimə diqqət yetirsək, həsəd haqqında müxtəlif ibrətamiz ayələrlə rastlaşarıq.

Uca Allah buyurur: **“Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!”** (əl-Hucurat, 10) Digər bir ayədə isə Allah-Təala peyğəmbərimiz Muhəmmədin (s.ə.s) sonuncu elçi olduğuna görə ona həsəd aparan əhli-kitab barəsində belə buyurur:

**“Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik”** (ən-Nisa, 54)

Başqa bir ayədə isə **"Paxıllığı tutanda paxılın şərindən!"** (əl-Fələq, 5) Allaha sığınmaq təlqin olunur.

Ənəs bin Malikin rəvayət etdiyi hədisdə belə buyurulur: *"Bir-birinizə nifrət etməyin! Bir-birinizlə əlaqəni kəsməyin! Bir-birinizə arxa çevirməyin! Bir-birinizə paxıllıq etməyin! Allahın əmr etdiyi kimi qardaş olun! Bilin ki,* müsəlmana üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalması *halal deyil".*

Digər bir hədisdə isə: *"Paxıllıq etməkdən çəkinin! Alov odunu yandırdığı kimi, paxıllıq da yaxşılıqları məhv edir"*- söylənilir.

Sözsüz ki, bu hədis həsədin haram və böyük günahlardan biri olmasına dəlildir. Böyük İslam alimlərindən olan İmam Müslimin şərhində qeyd olunur ki, həsəd bütün icma alimlərinin fikrincə haramdır.

Həsəd bir insanın öz qardaşında hər hansı nemətin olduğunu görüb bunların yox olmasını və ya bu xüsusiyyətlərin özündən başqasında olmamasını istəməsidir. Həsəd aparan həsəd olunanın uğurunun yox olması üçün dili və hərəkəti ilə öz kinini üzə çıxardar.

Günümüzdə həsəd və düşmənçiliyin törətdiyi fəsadlarla demək olar ki, tez-tez rastlaşırıq. Həsədə və nifrətə səbəb olan amillərin bəziləri aşağıdakı kimi sadalaya bilərik:

Ümmətin firqələrə bölünməsi. Halbuki İslam dini birliyə, qarşılıqlı əlaqəyə, yardımlaşmağa çağırır. Allah-Təala buyurur: **"Bu (tövhid dini islam) tək bir din olaraq sizin dininizdir, Mən də sizin Rəbbinizəm. Məndən (əzabımdan) qorxun!"** (əl-Muminun, 52).

Qüsur axtarmaq və başqaları barəsində pis gümanda olmaq. Başqalarının eyiblərini axtarıb üzlərinə vurmaq artıq insanlar arasında kin və nifrətin baş qaldırmasına və toplumun parçalanmasına işarədir. Allah-Təala buyurur: **"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın!.."** (əl-Hucurat, 12).

*"Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik".*
*(ən-Nisa, 54)*

Tarixdən də aydın olur ki, müsəlmanlar firqələrə bölündükləri, bir-birilərinə arxa çevirdikləri və şeytanın onlar arasında təfriqə salmağa imkan verdikləri üçün çoxlu bəlalara düçar olub, iştirak etdikləri müharibələrdə məğlubiyyətə məruz qalıblar. Allah-Təala bizə belə əmr edir: **"Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz!.."** (əl-Ənfal, 46).

Əbu Hüreyrə (r.a) Rəsulullahın (s.ə.s) belə buyurduğunu rəvayət etmişdir: *"Cənnətin qapıları hər bazar eretəsi və cümə axşamı günləri açılır və Allaha şərik qoşmayan hər bir qulun günahı bağışlanır. Arasında müsəlman qardaşı ilə düşmənçilik olan kəs isə istisnadır. Onlara bir-biriləri ilə barışana kimi möhlət verilər".*

Başqa bir hədisdə isə belə buyurulur: *"Bir-birinizə həsəd aparmayın! Bir-birinizə nifrət etməyin! Və bir-birinizə arx açevirməyin! Biriniz digərinizin satışına müdaxilə etməsin! Allahın qardaş qulları olun! Müsəlman müsəlmanın qardaşıdır, onu tərk etməsin, acılamasın, təhqir etməsin! Müsəlmanın qanı, malı və namusu digər müsəlmana haramdır".*

Kamal SƏLİMOV

# QURANDAKI TƏKRARLARIN MÖCÜZƏVİ SAYI

Quran göndərildiyi gündən etibarən hər dövrdə yaşayan insanların anlaya biləcəyi asan və aydın dilə malikdir. Ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslub xüsusiyyətləri və ehtiva etdiyi üstün hikmət Quranın Allahın sözü olduğunu sübut edən ən əhəmiyyətli səbəblərindəndir. Bununla yanaşı, Quranın Allahın sözü olduğunu isbat edən bir çox əlavə möcüzəvi xüsusiyyəti var. Bunlardan biri də Quranda diqqəti cəlb edən söz təkrarlarıdır. Allah bundan 14 əsr əvvəl insanlara yol göstərici kitab olan Qurani-Kərimi göndərmiş və bütün insanlığı Qurana tabe olaraq qurtuluşa çatmağa dəvət etmişdir. Ayədə də bildirildiyi kimi, Quran **"...aləmlərə ancaq bir öyüd-nəsihətdir!"** (Qələm surəsi, 52) Quran göndərildiyi gündən etibarən qiyamət gününə qədər insanlığın yeganə yol bələdçisi olan son ilahi kitabdır. Ancaq XX və XXI əsr texnologiyası ilə əldə etdiyimiz bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda bildirilməsi Quranın Allahın sözü olduğunu isbat edən çoxlu möcüzələrdən biridir. Bu xüsusiyyətlərdən biri də "riyazi möcüzə"lərdir. Bu möcüzəyə bir nümunə isə Qurandakı bəzi söz təkrarlarının verdiyi ortaq sayları göstərmək olar. Bir-biri ilə əlaqədar bəzi sözlər möcüzəvi şəkildə eyni sayda təkrarlanır. Aşağıda bu cür sözlər və Qurandakı təkrarlanma sayları verilmişdir.

*"Yeddi göy"* ifadəsi 7 dəfə təkrarlanır. *"Göylərin yaradılışı (xəlqi-səmavat)"* ifadəsi də 7 dəfə təkrarlanır.

*"Gün (yovm)"* ifadəsi tək olaraq 365 dəfə, çoxluq, yəni *"günlər (əyyam və yovmeyn)"* sözləri 30 dəfə təkrarlanır. "Ay" sözünün təkrarı isə 12-dir.

*"Bitki"* və *"ağac"* sözlərinin təkrar sayı eynidir: 26

*"Cəza"* sözü 117 dəfə çəkildiyi halda,



Quran əxlaqının təməl xüsusiyyətlərindən olan *"bağışlamaq"* ifadəsi bu sayın 2 misli qədər, yəni 234 dəfə təkrarlanır.

*"De"* sözlərini saydığımızda çıxan nəticə 332-dir. *"Dedilər"* sözünü saydığımızda da eyni sayı əldə edirik.

*"Dünya"* sözü və *"axirət"* sözünün təkrarlanma sayı da eynidir: 115

*"Şeytan"* sözü Quranda 88 dəfə keçir. *"Mələk"* sözünün təkrar sayı da 88-dir.

*"İman"* və *"küfr"* sözləri Quranda 25 dəfə təkrarlanır.

*"Cənnət"* və *"cəhənnəm"* sözü də eyni sayda təkrarlanır: 77

*"Zəkat"* sözü Quranda 32 dəfə təkrarlanarkən, *"bərəkət"* sözünün təkrarlanma sayı da 32-dir.

*"Yaxşılar (əbrar)"* 6 dəfə təkrarlandığı halda, *"pislər (fuccar)"* sözü isə düz yarısı qədər, yəni 3 dəfə keçir.

*"Yay-isti"* sözləri ilə *"qış-soyuq"* sözlərinin işlənmə sayı da eynidir: 5

*"Şərab (xamr)"* və *"sərxoşluq (səkərə)"* sözləri də Quranda eyni sayda təkrarlanır: 6

*"Düşünmək"* və *"nur"* saylarının təkrarı da eynidir: 49

*"Dil"* və *"öyüd"* sözləri eyni sayda (25 dəfə) təkrar edilir.

*"Fayda"* sözü 50, *"korlama"* sözü də 50 dəfə təkrarlanır.

*"Sevgi"* və *"itaət"* sözlərinin təkrar sayı eynidir: 83

Quranda *"dönüş"* və *"sonsuz"* sözləri eyni sayda yer almışdır: 28

*"Müsibət"* sözü və *"şükür"* sözü Quranda eyni sayda keçir: 75 dəfə

*"Günəş (şəms)"* və *"işıq (nur)"* sözləri Quranda 33 dəfə keçir. (Sayarkən "nur" sözünün yalnız adlıq halları nəzərə alınmışdır.)

*"Doğru yola çatdıran (Əlhuda)"* və *"rəhmət"* sözlərinin təkrar sayı bərabərdir: 79

Quranda *"çətinlik"* sözü 13 dəfə keçərkən, *"hüzur"* sözü də 13 dəfə təkrarlanır.

*"Qadın"* və *"kişi"* sözlərinin təkrar sayı da eynidir: 23

*Allah bundan 14 əsr əvvəl insanlara yol göstərici kitab olan Qurani-Kərimi göndərmiş və bütün insanlığı Qurana tabe olaraq qurtuluşa çatmağa dəvət etmişdir. Ayədə də bildirildiyi kimi, Quran "…aləmlərə ancaq bir öyüd-nəsihətdir!" (Qələm surəsi, 52) Quran göndərildiyi gündən etibarən qiyamət gününə qədər insanlığın yeganə yol bələdçisi olan son ilahi kitabdır.*

Qadın, kişi sözlərinin Quranda təkrar sayı olan 23 eyni zamanda insan rüşeyminin (embrion) meydana gəlməsində yumurta və spermdən gələn xromosom sayıdır. İnsanın xromosom sayı da ata və anadan gələn 23 xromosomun cəmi olaraq 46-dır.

*"Xəyanət"* sözü 16 dəfə keçərkən, *"xəbis"* sözünün təkrar sayı da 16-dır.

*"İnsan"* sözü Quranda 65 dəfə keçir; insanın yaradılış mərhələlərinin sayının cəmi də eynidir.

*"Salavat"* sözü bütün Quranda 5 dəfə keçir və Allah insanlara gündə beş dəfə namaz qılmalarını bildirmişdir.

*"Quru"* sözü Quranda 13 dəfə keçərkən, *"dəniz"* sözü 32 dəfə keçir. Bu ədədlərin cəmi bizə 45 sayını verir. Əgər torpağın Quranda çəkildiyi sayı, yəni 13-ü 45-ə bölsək, %28,888888888889 sayını əldə edərik. Dənizlərin Qurandakı sayını, yəni 32-ni 45-ə böldüyümüz zaman isə %71,111111111111 sayını alırıq. Bu nisbətlər isə planetimizdəki su və quru hissələrinin həqiqi nisbətidir.

Bütün bu rəqəmləri sadaladıqdan sonra bu araşadırmanı aşağıdakı ayə ilə bitirmək isəyirəm.

**"…Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar".** (Nisa surəsi, 82)

Adem ŞAHİN
ameha0@hotmail.com





# YOL DƏRSLƏRİ

Dəmir təkərlərin üstündə Qazaxıstanın Çimkənd şəhərindən Bişkekə doğru gedirik. Qatarda elektrik samovarı var. Ürəyi istəyən hər kəs 24 saat hazır olan sudan istifadə edərək özünə çay dəmləyə bilər. Orta Asiyada qatar səfərləri bir neçə gün davam etdiyi üçün yatağından tutmuş isti suyuna kimi hər şeylə təmin edirlər. Qazaxıstanın bu başından o başına 48-60 saata getmək mümkündür. Ölkənin şərqi ilə qərbi arasında 1 saat zaman fərqi var. Qazaxıstandan Moskva-Bişkek qatarına mindik. Qatar dörd gün yol qət etdikdən sonra Moskva-Bişkek arasındakı səfərini başa vurur. Hər vaqonda bir konduktor var. Vəzifəsi sadəcə biletləri yoxlamaq deyil, ayaqyolu təmizliyi də daxil olmaqla samovarın qaynamasına nəzarət, yataq dəsti vermək və təhvil almaq, ara satıcılarına mane olmaq və sərhəddə yoxlama zamanı gömrük işçilərinə kömək etməkdən ibarətdir. Konduktorun kupesində stəkanlar və xırda çayniklər var. İstəyən hər kəs heç bir məbləğ ödəmədən götürüb istifadə edə bilər. Mən evdən gətirdiyim stəkanı götürürəm, samovardan su doldurub içinə paket çayımı atıram. Yol uzun olduğuna görə bəzən sadəcə qaynamış su götürüb içirik. Çinlilər çayı çox sevsələr də, deyilənə görə qaynamış suyu çox içirlər. Yanlarından termosu əskik etmirlər. Yəqin ki, biz də qonşudan təsirlənmişik, tez-tez isti su içirik. Çayın öz rəngi olub-olmadığından şübhələndiyimiz paket çayından daha yaxşı deyilmi? Evdə içdiyimiz çayların rənginin çıxması üçün 10 dəqiqə dəmləməli oluruq. 2,5 qram ağırlığı olan



paket çayları isə bir stəkan suyu çox qısa müddətdə rəngləndirir. İçdiyim qaynamış suyun dibində ərp yığıldığını görürəm. Stəkan tərpəndikcə ərpli su bulanıq görsənir. Stəkanın dibindəki bir udumluq suyu heç vaxt tərtəmiz görmədiyim toz-torpaqlı vaqon pəncərəsindən çölə atıram. Batmaq üzrə olan günəş zəifləmiş şüalarını saçaraq son dəfə həyatda qalmağa can atsa da, heç bir faydası yoxdur. Tozlu və palçıqlı pəncərə şüşəsinə düşən bir neçə damcı su par-par parıldamağa başlayır. Bir az əvvəlki bulanıqlıqdan əsər-əlamət yoxdur. Düşdüyü yer torpaq olsa da sanki kristallaşıb. Öz-özümə "hər damcı parıldayar, yetər ki, sən işıq ol, günəş ol, düzgün bucağı seç",- dedim.

Qaranlıq damcı yoxdur, işığı qəbul etməyənlər var. Bir damcı su öz canına işığı yaxşı çəkə bilsə, göy üzünü də içinə sığışdıra bilər. Günəş, ay və kosmosdan baxanda zeytun boyda görünən gözün içinə dünya sığışmırmı?

Hər insan bir damla su deyilmi? Həmin bir damla su ana bətnində üç qaranlıq içində yaşayar (Zumər surəsi, 6). Sonra iməkləməyə, danışmağa, yeriməyə, düşünməyə, sevməyə başlayar.

Hər insan bir damla sudur. Su damlası təmiz stəkanın dibində çirkli və bulanıq görsənə bilər. Amma tozlu və palçıqlı pəncərədə par-par parıldayar. Rəsulullah (s.ə.s) müşriklərin kirlətdiyi Məkkədə par-par parıldayaraq işıq saçdı. Lut peyğəmbərin xanımı, Nuh peyğəmbərin oğlu isə peyğəmbərin tərtəmiz və nurlu evində zülmət qaranlıqda qaldı. Ata Əbu Cəhlin bulanıqlığı oğlu İkriməyə təsir etmədi. Əsas məsələ həqiqət, eşq, vəhy günəşinin onların üzünə vurmasıdır. Hz. Peyğəmbər Məkkədə doğuldu, amma orada parıldayırdı, zülm və şirk qaranlığından uzaq idi. Vəhb bin Kəbşə həzrətləri it-pişik, siçan əti yeyilən torpaqlarda qiyamətədək par-par parlayacaq, işıq saçacaq.

*Bişkekdə bir axşam vaxtı işıqlar sönsə də bədirlənmiş ay səmadan şəfqətlə gülümsəyir. Dəvətsiz qonaq kimi açıq pəncərəmdən içəri süzülən ay işığı Mövlananı xatırladır. "Ayın işığı hər nə qədər məşriqlə məğribi əhatə etsə də evə girməsi pəncərənin böyüklüyü qədərdir".*

Uşaqları həddən artıq gigiyenik mühitdə böyütməkdənsə, üzərlərinə həqiqət günəşi, yoxsa zülm, batil və şərin kölgəsi düşdüyünə diqqət etmək lazımdır. Təki günəş doğsun, təki səmada bədirlənmiş ay olsun, əgər pəncərə açıqdırsa, hər yeri işıqlandırar, isidər.

Bişkekdə bir axşam vaxtı işıqlar sönsə də bədirlənmiş ay səmadan şəfqətlə gülümsəyir. Dəvətsiz qonaq kimi açıq pəncərəmdən içəri süzülən ay işığı Mövlananı xatırladır. "Ayın işığı hər nə qədər məşriqlə məğribi əhatə etsə də evə girməsi pəncərənin böyüklüyü qədərdir". Ey Rəbbim, bu şəhərdə pəncərə və qapı açmama yardım et. İnşallah günəşi və ayı göstərər, günəşlə isinər, günəşlə kamilləşərəm. Bişkekə çatmamış dərslər başlayır. Üstəlik yolda. Yaşlanan müəllim olaraq hərzamankı kimi dərsi təkrarlayıram. Hər insan damladır. Damla yer üzündən quruyub yox olana qədər parıldayacağından ümid kəsilməz. Rəsulullah (s.ə.s) Əbu Talibi son nəfəsinə qədər parıldamağa dəvət etdi. İman və məhəbbət parıldadır. Küfr isə örtmək, gizlətmək deməkdir. Qaranlıq mənası da var. Qurani-Kərimdə kafirlərin yerlərində saydıqlarından, istiqaməti itirdiklərindən söz açılır. Hər insan parıldamaq üçün yaradılmışdır. Yetər ki, sən kölgə salma. Allahsız parıldamaq makiyajla mümkündür. Ömrü də xlorlu suyu görənə qədərdir.

İlham SOVQATOV
ilhamsovqatov@mail.ru



# QISA ÖMÜR ŞİRİN ÖMÜR

İnsan yaşa dolduqca bədən quruluşu dəyişməklə yanaşı, təfəkküründə, düşüncəsində də dəyişikliklər meydana gəlir. Uşaqlıq dövründə ana-ata qayğısı ilə böyüyən insan gənclik dövründə dəliqanlılıq hissləri ilə həyata böyük ümidlərlə baxır. Orta yaşa dolduqca daha əvvəlki gənclik çılğınlıqlardan heç bir əsər-əlamət qalmır. Cavanlıq dövründə həyata baxdığı kimi baxmır. Artıq gənc kimi düşünmür. Get-gedə həyatın keşməkeşkli yollarında hərbə-zorbaya tab gətirə-gətirə əzilir, əməlli-başlı bişir, püxtələşir. Yetkinlik yaşında artıq öz həyatına istiqamət verməyə çalışır. Öyrənir, öyrədir, çalışır, zəhmət çəkir. Bu fani dünyada görüb-götürür və nəhayət, həyatını bir istiqamətə yönləndirir.

Doğulandan ölümə qədər insan həyatı üçün qoyulmuş bir qayda vardır və hamı da bu qayda ilə həyatını yaşamağa çalışır. Çox maraqlıdır ki, bu dünya həyatı sadəcə bundan ibarətdir: insan doğulacaq, ana-ata qayğısı ilə böyüyəcək, məktəbə gedəcək, hərbi xidmətdə olacaq, universitetə daxil olacaq, iş tapacaq, iş karyerasını quracaq, ailə həyatı quracaq, uşaq sahibi olacaq, ailəsi üçün ruzi qazanacaq,

övladlarını böyüdəcək, tərbiyələndirəcək, məktəbə göndərəcək, universitetə daxil edəcək, evləndirəcək və nəhayət, nəvə sahibi olacaqdır. Sonunda qocalıb öz təqaüdünü alacaq, necə deyərlər, bir gün doğulduğu kimi öləcəyi üçün ölümünü gözləyəcəkdir. Budur insan həyatı. "Standart insan həyatı" demək mümkünsə, bu cür adlandırmaq olar. Bununla yanaşı, ibadət edəcək, yaxşı əməllər işləyəcək, yaxşılıqları tövsiyə edəcək, pisliklərdən çəkinəcək və çəkindirəcək, namazını qılacaq, orucunu tutacaq, zəkatını verəcək, həccə gedəcək, infaq edəcək, lazım gəlsə cihad da edəcək. Harama əl atmayacaq, oğruluq, zina etməyəcək, adam öldürməyəcək, bir sözlə, haqqı tövsiyə edib ədalətin bərqərar olmasında yardımcı olacaqdır.

Beləliklə, biz bir insan ömrünü bir abzasa sığdıra bilirik. Yetmiş-səksən illik insan ömrünü bir şablon kimi gözümüzün önündən keçiririk. Dünən uşaq idik, bu gün gəncik, sabah qocayıq. Gör necə də tez bir zamanda insan ömrü keçib gedir. Ölüm həqiqətini dərk edə-edə ölümə tərəf gedirik. Dahi bir söz var: "Biz ölmək üçün doğulmuşuq!". Bəli, doğuluşumuzla ölümümüzü qazanmışıq. Doğulduqsa, öləcəyik.

İnsan həyatı bir film kimi bir ssenaristin yazdığı ssenaridir sanki. Əvvəl və axır. Başlanğıc və final. Başlandığı kimi sona çatmalıdır. Bu, bir qanundur. Bunu dəyişmək olmaz. Bir kitabın, bir məqalənin başlanğıcı var, bir də sonu. Hər şeyin əvvəli var, bir də sonu. Ömrümüzün də əvvəli olduğu kimi sonu da labüddür. Bütün bunlar insanı düşündürməyə vadar edir ki, bu həyat bundan ibarətdirsə, deməli, insan niyə yaşayır? İnsan sadəcə bu dünyaya gəlib qısa bir ömür sürüb sonra torpağamı qarışmalıdır? Bəs bundan əlavə başqa bir məqsəd yoxdurmu insan həyatında? Sadəcə doğulmaqla başlanan, ölümlə nəticələnən bu dünya həyatında o qədər əzab-əziyyətlərə, çətinliklərə qatlanmağın nə mənası var? Nədən ötəri insanlar bu keşməkeşli həyatı yaşayırlar. Doğulduğu andan etibarən yaşamağa can atır, yaşayır və nəticədə də ölür. Beləliklə, yenə qısa dünya həyatı. Burada N. Ostrovskinin sözləri yadıma düşür: "Ömür insana bir dəfə verilir və onu elə yaşamaq lazımdır ki, mənasız keçən illər üçün vicdan əzabı çəkməyəsən". Bəli, ömür insana bir dəfə verilir.

*Dünən uşaq idik, bu gün gəncik, sabah qoca. Gör necə də tez bir zamanda insan ömrü keçib gedir. Ölüm həqiqətini dərk edə-edə ölümə tərəf gedirik. Dahi bir söz var: "Biz ölmək üçün doğulmuşuq!". Bəli, doğuluşumuzla ölümümüzü qazanmışıq. Doğulduqsa, öləcəyik.*

Bu dünya həyatının qısa olmağı da onun çox şirin olmasına gətirib çıxarır. Bunu unutmayaq ki, az olan şey həmişə dəyərli, ləzzətli, dadlı, daha şirin olur. Bu dünya həyatı da belədir. Qısa olduğu üçün çox cazibəlidir, çox sevimlidir. Çünki insan bu dünya həyatından bir şey qana bilmir. Onun dadından doymur. Bunun üçün də dünya, həyat, yaşamaq bu qədər sevimlidir. Az olan saz olur.

Ancaq nəticə olaraq dünya həyatı bizi başqa aləmə götürmək üçün verilib. O da axirət həyatıdır. Bütün bu dünyada baş verənlərin nəticəsi kimi hər şey axirət üçündür. Bu dünya axirətə xidmət edir. Təbiri caizsə, dünya üniversitet kimidir, kimisini cənnətə, kimisini də cəhənnəmə hazırlaşdırır.

*Allahdan başqa ilah yoxdur*

# TÖVHİD

"O Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilənAllahdır".
(Həşr surəsi, 22-ci ayə)

## Allahım!

Sənə inanıram. Sənin heç nəyə ehtiyacın yoxdur, hər kəs və hər şey Sənə möhtacdır. Sənin gücün hər şeyə çatar. Göylərdə və yerdə nə varsa, hamısının sahibi Sənsən. Sən təksən, tayın-bərabərin yoxdur. Sən ilksən, Səndən əvvəl və sonra heç bir varlıq yoxdur.

## Allahım!

Sən yaradansan. Adını bildiyimiz və bilmədiyimiz bütün varlıqlar Sənin əsərindir. Nəyinsə olmasını istədikdə sadəcə "Ol" deməyin kifayətdir.

Qurumuş bir yarpaq belə Sənin iznin olmadan budağından düşməz.

Sən hər şeyi görürsən, bilirsən. Heç nə Səndən gizli deyil.

Ürəyimizdən keçənləri bilirsən, beynimizdə düşündüyümüzü bilirsən. Hər addımımızdan xəbərdarsan. Etmək istədiyimizi də bilirsən.

## Allahım!

Əmrlərini bizə çatdırmaq üçün bizdən peyğəmbərlər seçib göndərdin. Çox sevdiyin qulun və elçin Həzrət Muhammədi bizə bələdçi təyin etdin. Artıq dünyanın sonuna qədər yolumzudan azmarıq. İnsanlığın nə demək olduğunu, mərhəmət və şəfqəti Ondan öyrəndik.

## Allahım!

Sən hər şeyin fövqündə və üzərindəsən. Yaxşı ki, bizi yaratdın və öz varlığından xəbərdar etdin. Sənə sonsuz şükürlər olsun!..

"Kim lə ilahə illəllah
deyər və ölənə qədər
bu sözdən dönməzsə,
cənnətə girər."
Hədisi-şərif




## Tövhid nə deməkdir?

Allahın
* bir
* tək
* doğmamış
* doğulmamış

olduğunu, Onun
* tayı
* bərabəri
* bənzəri

olmadığını qəbul etməkdir.

İman nədir?

Allahın varlığını və birliyini qəbul edərək, Onun göndərdiyi dinin hökmlərini qəlb ilə təsdiq və bu inancı dillə ifadə etməkdir.

İman nədir?

Allahın varlığını və birliyini qəbul edərək, Onun göndərdiyi dinin hökmlərini qəlb ilə təsdiq və bu inancı dillə ifadə etməkdir.

Əziz SULTANOV

# BİZ DƏ MÖMİNİKMİ?

Tarix: 15 oktyabr 2014.
Yer: Dördyol/Şəki.

Bir sürücünün anlatdıqları müsəlmanlar əleyhində dərc olunan min xəbərdən daha dərin bir iz buraxdı sinəmdə. Gəncəyə, oradan da Sınıq Körpü yoluyla Gürcüstana edəcəyim səfər üçün minəcəyim beş vasitədən ikincisini gözləyirdim ki, yolda Zaqataladan gələn Bərdə maşını göründü. Yollarda çox gözləməyin verdiyi bezginlik refleksi ilə Gəncə maşınını gözləmədən buna minmək qərarına gəldim. Yevlaxdan Gəncəyə də ayrı bir maşınla gedərək minəcəyim maşın sayını altıya çıxartsam da heç olmasa yolda gözləməz, hərəkət halında olaraq vaxtı keçirəcəkdim. Qabaq oturacaqda yer var idi və sürücü ilə yan-yana oturdum. Çox keçmədi ki, sürücü məni söhbətə tutdu; hara gedirsən, niyə gedirsən, harada yaşayırsan və s. İlahiyyatçı olduğumu öyrənəndə soruşduğu ilk sual Suriya – İraq məsələsi oldu. Bu sualı eşitməyə artıq vərdiş etdiyimiz üçün verəcəyimiz cavabı da hamı bilir. Din libası altında ortaya çıxardılan kirli münaqişənin İslam dininə aid edilməsinin doğru olmadığını qeyd etdim. Müsəlmanların öz dinlərindən həqiqi mənada xəbərdar olmadıqlarını və çox rahat təsir altına girərək səhv yollara girə bildiklərini dilə gətirdim. Məni narahat edən əsas sual isə ikinci sual oldu: Filan mədrəsəni tanıyırsanmı?

Cavab verməyə bir az çəkinsəm də yalan danışa bilməzdim. Dedim, - tanıyıram, amma bunun sizin söhbətinizlə nə əlaqəsi var? Olub-bitəni qısaca belə danışdı: "bir zamanlar (təxminən on il əvvəl) mən də dinə, ibadətə yaxın adam idim. Amma orada başıma elə iş gətirdilər ki, mən tamamilə çevrildim və dinə nifrət edən adam oldum. O vaxtlar İkarus marka böyük avtobus sürürdüm. O bölgədəki bəzi din xadimləri və din müəllimləri mənim avtobusumla həccə gedəcəklərini ddilər. Avtobusu yola hazırlamaq üçün xeyli xərc qoydum. Getməyə bir həftə qalmış işin içində bəzi ticari qaranlıq məsələlər olduğunu gördüm. Nəhayət, bu işə bulaşmamaq üçün aradan çəkildim və bu səfərə qatılmadım. Mən onlara çox güvənmişdim. Danışanda elə danışırdılar ki, deyirdim bunlardan daha gözəl insanlar ola bilərmi?! Ancaq işin axırında məni elə yerdə qoydular ki, bir daha o tərəfə yönümü çevirmədim". Mən də öz növbəmdə hər kəsin səhvi ola biləcəyini, yəqin ki, bilmədiyin bəzi məqamların ola biləcəyini deyərək onu sakitləşdirməyə çalışdım. Çalışdım, amma cavabımın onu nə qədər qane etdiyini də bilmirəm. Avtobusdan Yevlaxda endim və oradan Gürcüstana çatana kimi bu söhbət beynimdən çıxmadı ki, çıxmadı. Bir avtobus sürücüsü on il əvvəl olan söhbəti hələ də içində bir qara yara kimi daşıyırsa, din xadimlərinin daşıdığı məsuliyyətin nə qədər böyük olduğunu düşündüm. Məsələnin sadəcə danışmaqla deyil, təmsillə həll olunduğunu bir daha dərk elədim. Könül qırmağın necə də sağalmaz bir yara olduğunu və onun fəsadlarını daha yaxından gördüm. Düşündüm ki, görəsən, biz nə qədər müsəlmanıq, nə qədər möminik? Uca kitabımızdakı vədlərin, Hz. peyğəmbərin hədislərindəki müjdələrin çoxunun "mömin" ibarəsi altında cəm edildiyini düşünəndə, - görəsən, həqiqi möminlər kimlərdir sualı bir daha ağlıma gəldi. Görəsən, Peyğəmbər (s.ə.s) mömininin kim olduğunu bildirən hədislərdə nə demək istəyirdi? Suallarımın nəyə yönəldiyinin anlaşılması üçün bir neçə hədisi nümunə göstərim:

*"Sizdən biriniz özü üçün istədiyi şeyi (din) qardaşı üçün də istəməsə iman etmiş olmaz".*

*"Müsəlman, digər müsəlmanlara əli vəya dili ilə ziyan verməyən kimsədir".*

*"Qonşusu ac ikən özü tox yatan mömin (iman sahibi) deyildir".*

*"Bir kimsənin qonşusu onun şərindən əmin deyilsə, o kimsə* mömin (iman sahibi) deyildir".

*"Əmanətə riayət etməyənin imanı yoxdur".*

*"Mərhəməti olmayanın imanı olmaz".*

*"Bizi aldadan bizdən deyil".*

*"Elm öyrənməyən bizdən deyil".*

Bir çoxumuz bu hədislərin belə bir tərcüməsini görməyib, elə deyilmi? Kitablarımızda belə hədisləri "mömin deyil" yerinə "kamil bir mömin olmaz" şəklində tərcümə edilmiş halda görürük. Səbəbi: kəlmə - kəlmə tərcümə etsək, çoxumuz iman dairəsindən kənarda qalmış olarıq. Bu halda mömin olmamaq iman sahibi olmamaq, yəni imansız olmaq mənasına gələrdi. Mən də bu yumşadılmış tərcümələrlə razılaşıram, amma ara-sıra oturub fikirləşmək də lazımdır. Bəlkə də Peyğəmbər (s.ə.s) bu sözləri deyərkən elə o kəlmə mənasını nəzərdə tuturdu?!

Yazımın başında nəql etdiyim hadisənin də elə əsl səbəbi din xadimi olaraq həyat tərzi seçmiş qardaşlarımızın bəzi hərəkətlərinin sözünü etdiyimiz kəlməyə sığmamasıdır. İman işini, axirət sərmayəsini şansa buraxmaq olmaz. Odur ki, məncə belə ifadələrə sahib olan hədisləri bir daha qabağımıza qoyub götür-qoy eləmək məcburiyyətindəyik: biz bu hədislərin harasındayıq, görəsən, həqiqətən biz də möminikmi?..

Rüstəm HUDULOV

# Tövhid və Şəhadət



**İnsanın yer üzündə ilk vəzifəsi iman etməkdir. İmanın ilk şərti və** ilk qapısı da "Tövhid" və "Şəhadət" kəlmələridir. Kim səmimi qəlbdən və inanaraq "Lə iləhə illallah, Muhammədun Rəsulullah" deyərsə, mömin və müsəlman olar. "Allahdan başqa ilah olmadığını və Hz. Muhəmmədin (s.ə.s) Allahın elçisi olduğunu" ifadə edən bu kəlmə kainatın ən uca və ən qiymətli kəlməsidir.

Göründüyü kimi tövhid və şəhadət kəlmələri iki hissədən ibarətdir:

Birinci hissə Allaha imanı, ikinci hissə isə Hz. Muhəmmədin (s.ə.s) Peyğəmbər olduğuna imanı ifadə edir. Yəni Allaha inanan bir kəsin Peyğəmbərə də inanması vacibdir. Bir şəxsin bu iki kəlməyə inanması imanın digər bütün şərtlərinə inanması deməkdir. Belə imana da "icmali" iman deyilir.

Allaha iman ilə Hz Peyğəmbərə (s.ə.s) iman bir-birindən ayrılmazdır. Tövhid və şəhadət kəlmələri yoxdursa, iman da yoxdur. İmanın olmadığı bir könül, imanın olmadığı bir dünya qaranlıqdır. Ən xoşbəxt insanlar könüllərini imanla nurlandıranlardır. Buna görə də könülləri və dünyanı nurlandıran imanla Allaha qulluq etmək, Allahın əmrlərini yerinə yetirmək hər bir müsəlmanın əsas vəzifəsidir. Gözlərində pərdə olan, qəlblərinə möhür vurulmuş, "qəlbim təmizdir, namaza və ibadətə ehtiyac yoxdur" -deyənlərin qəlbləri və dünyaları qaranlıqdır. Çünki onlar imanı sönməkdən qoruyan ibadəti tərk etmişlər.

Uca Allah Qurani Kərimdə belə buyurur: **"Allahdan başqa heç bir ilah yoxdur. (Bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi və əzəli varlıq Odur".(Bəqərə255) Başqa bir ayətikəlimədə isə belə buyurur: "Göydə də, yerdə də İlah odur. O, hikmət sahibidir, (hər şeyi) biləndir".** (əz-Zuxruf 84).

Şəhadət kəlməsini söyləyən kəs Allaha bu cür söz vermiş olur: "Allahım, məni yaradan və yaşadan Sənsən. Ən böyük Sənsən. Hakim Sənsən. Halal və haramı bildirən Sənsən. Mən sənin qulunam. Yalnız Sənə qulluq edəcək və yalnız Səndən yardım diləyəcəyəm. Əmrləri yerinə yetirəcək və qadağalardan çəkinəcəyəm. Həyatımın hər anını Sənə iman və qulluq edərək keçirəcəyəm".

Rasulullah (s.ə.s) bir hədisində belə buyurur: *"Kim Allahdan başqa ilah olmadığına və Hz Muhəmmədin (s.ə.s) Allahın elçisi olduğuna şəhadət edərsə, Allah ona cəhənnəmi haram qılar və o cənnətə girər".* (Müslim, İman 44, 47). Uca Allah cümləmizi, son kəlməsi "Lə iləhə illəllah" olanlardan və cənnətinə girənlərdən eləsin. Amin.

Ülvi MƏMMƏDOV

# Tanımadığın Adamlara Qoyunu Necə Yedirdin?

Qonaqpərvərliyin mükafatını göstərən bu hadisə necə də gözəldir.

Hz. Həsən, Hz. Hüseyn və Abdullah bin Cəfər (r.anhum) bir gün həccə getmək niyyəti ilə Mədineyi-Münəvvərədən yola çıxdılar. Yolda əşyalarını itirib ac və susuz qaldılar. Çöldə bir çadır görüb yanına getdilər. Çadırda yaşlı bir qadın vardı. Qadından içməyə bir şey olub-omadığını soruşdular. Qadın:

- Bir qoyunum var, südünü sağıb için!,- dedi.

Südü sağıb içəndən sonra ac olduqlarını, yeməyə bir şeyin olub-olmadığını soruşdular. Qadın belə cavab verdi:

- Bu qoyundan başqa heç nəyimiz yoxdur. Onu kəsin mən də bişirim.

Qoyunu kəsib yedilər. Oradan ayrılanda qadına dedilər:

- Biz Qüreyş qəbiləsindənik. Həccə gedirik. Sağ-salamat Mədinəyə qayıtsaq, mütləq bizi tap. Bizə etdiyin yaxşılığın əvəzini vermək istəyirik.

Axşam qadının əri gəldi. Vəziyyəti öyrənən kimi arvadının hərəkətinə bərk hirsləndi.

- Tanımadığın adamlara qoyunu necə yedirdin? Qüreyşdən bir neçə nəfər deyirsən. Heç belə də adam tapmaq olar?,- deyərək deyinməyə başladı.

Bu ailə bir müddət sonra Mədinəyə köçməyə məcbur oldu. Çöldən təzək yığıb satır və bir təhər dolanırdılar. Bir gün Mədinə küçələrindən keçərkən Hz. Həsənin evinin yanından keçirdilər. Qadın qapının ağzında oturan Hz. Həsəni tanımasa da, o, qadını tanıdı. Hz. Həsən o saat onların yanına getdi. Qadının etdiyi yaxşılıqları xatırlatdı, ona çoxlu qızıl və qoyun verərək Hz. Hüseynin yanına göndərdi. O da qadına eyni hədiyyələri verərək onu Abdullahın yanına gödərdi. Abdullah da Həsən və Hüseynin verdiyinin iki mislini verərək belə dedi:

- Əvvəlcə onlarla rastlaşmağın yaxşı olub. Çünki əvvəlcə mənimlə rastlaşsaydın, onlar çətin vəziyyətdə qalardılar.





Eldar KƏRİMOV
eldarkerimli@gmail.com

# ELMSİZ MÜSƏLMAN

"Tarix boyu başımıza gələn müsibətlərin səbəbi ya elmdən uzaq qalmağımız, ya da elmlə məşğul olan insanlarımıza dəyər verməməyimiz olmuşdur". Məqalənin ən sonunda deyəcəyim bu cümləni ən başda qeyd etməyimin məqsədi məqaləni sona qədər oxumayanlara ilk cümlədən mesajı verməkdir. Keçimişdəki bütün tariximizi incələdiyimiz zaman görürük ki, müsəlmanlar nə zaman elmə, biliyə qiymət veriblər, o qədər güclü və yenilməz olublar, nə zaman da ki elmdən uzaqlaşıblar, torpaqları ya istila olunub və ya başlarına min bir müsibət gəlib. Müqəddəs kitabımız Quranın bizlərə ilk mesajı oxu olmasına baxmayaraq, oxuyan insanlara düşmən gözü ilə baxanları hələ başa düşə bilməkdə çox çətinlik çəkəcəyik. Necə deyərlər, nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər. Axı arxasından getdiyimiz, özümüzə bütün həyatını nümunə götürdüyümüz Hz. Məhəmməd (s.ə.s) müsəlmanlarla müşriklər arasında baş verən Bədir döyüşündə əsir alınmış müşriklərin öldürülməsinə fərman verməmiş, onları müsəlmanlara oxuma-yazma öyrətdikdən sonra sərbəst buraxmışdır. Hətta Peyğəmbərimizin (s.ə.s) zamanında səhabələr toplu şəkildə döyüşlərdə iştirak etməz, arxada insanları aydınladıb, maarifləndirəcək şəxislərə xüsusi diqqət ayrılardı.

Yenə Allah Təala Zümər surəsinin 9-cu ayəsində: **De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar".** buyurur. Bundan başqa Taha surəsinin 114-cü ayəsində Allah Təala Peyğəmbərimizə xitabən: **"Ey Rəbbim! Elmimi artır!"– de.** buyurur.

Bəqərə surəsinin 31-34-cü ayələrində də mələklərin Adəmə (ə.s) səcdə etmələrinin səbəbi Hz. Adəmin hər şeyin adını bilməsi idi. Daha aydın bir şəkildə desək mələklərdən daha çox elmə sahib olması idi. **"Allah Adəmə bütün şeylərin adlarını öyrətdi Sonra onları mələklərə göstərib dedi: "Doğru danışanlarsınızsa, bunların adlarını Mənə deyin!"**

**Allah dedi: "Ey Adəm, bunların adlarını onlara bildir!" O, bunların adlarını onlara bildirdikdə Allah dedi: "Mən sizə**

**Bizlər əsl sərvətimizdən uzaqlaşıb, sadəcə keçmişimizlə öyünməyə başladıq. Gələcəyimizi işiqlandırmaq üçün özümüzə heç bir sərmayə qoymadıq. Müsəlman olmayanlar müsəlman kimi yaşayıb uğur qazandı, biz isə müsəlman olduğumuz halda İslamı olduğu kimi yaşaya bilmədik. Hər birimiz İslamsız müsəlmana çevrildik.**

**demədim ki, göylərdə və yerdə olan qeybi, aşkara çıxartdığınızı və gizli saxladığınızı bilirəm?"**

**Bir zaman Biz mələklərə: «Adəmə səcdə edin!»– dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafir oldu.**

Qeyd etdiyimiz bütün bu ayələrdən və Hz. Peyğəmbərin (s.ə.s) tətbiqatından da görüldüyü kimi İslam hər zaman elmə və elm sahibinə dəyər vermiş və onu yüksəltmişdir. Amma bu gün dünyanın dörd bir yanında günahsız və məsum müsəlmanlar qətl edilməkdə və olmazın əziyyətlərə məruz qalmaqdadır. Bunun başlıca səbəbkarları da məhz biz özümüzük. Bizlər əsl sərvətimizdən uzaqlaşıb, sadəcə keçmişimizlə öyünməyə başladıq. Gələcəyimizi işiqlandırmaq üçün özümüzə heç bir sərmayə qoymadıq. Müsəlman olmayanlar müsəlman kimi yaşayıb uğur qazandı, biz isə müsəlman olduğumuz halda İslamı olduğu kimi yaşaya bilmədik. Hər birimiz İslamsız müsəlmana çevrildik. Bu gün Amerikanın, Yaponiyanın, o cümlədən digər Avropa dövlətlərin inkişafının və dünyadakı hegemonluqlarının yeganə səbəbi elmə verdikləri dəyərdir. Yoxsa onların bizdən heç bir artıq cəhət və keyfiyyətləri yoxdur. Əgər dünyanın ən qabaqcıl universitetinin yeddisi Amerikadadırsa, deməli, dünya onunla hesablaşmalıdır. Belə demək mümkündürsə onun qarşısında əyilməli və ona təzim etməlidir. Bunun başqa yolu yoxdur. Elmli olan güclüdür və bu gücü elmsizlər üzərində göstərməyə haqq sahibidir. Dahi şairimiz Nizami Gəncəvi bu həqiqəti necə də gözəl ifadə etmişdir: *Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə* üstünlük *eyləyə bilməz.* Günümüzdə sadəcə elmin mahiyyəti dəyişmişdir. Konfutsinin dediyi kimi "Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyanı fəth etmək naminə öyrənirlər".

Bəli bütün müsəlman torpaqlarında qanın su yerinə axmasının da arxasında bu həqiqət gizlənmişdir. Elmi dünyanı fəth etmək naminə öyrənənlər bu gün müsəlman torpaqlarında at oynadırlar. Fikrimcə artıq buna dur deməyin vaxtı gəlib çatmışdır. Heç olmasa gec olmadan, gələcək nəsillərimiz məhv edilmədən bu yuxudan oyanmalıyıq. Yenidən əslimizə, kimliyimizə qayıdıb elmin ətəyindən bərk-bərk yapışmalıyıq. Yoxsa axırımız heç də yaxşı görünmür.

Yaponiyada universitetlərin qarşısında yazılan bu önəmli cümləni də sizinlə paylaşmaq istədim: "Əgər bu universitetdə və gələcək həyatında uğur qazanmaq istəyirsənsə dörd saatdan artıq yatmamalısan".

Ey mənim mala-dövlətə həris olub, elmi unudan əziz müsəlman qardaş və bacılarım! Fikirlərimi italyan filosofu Covanni Vikonun bir sözü ilə bitirmək istəyirəm: "Elm insanın tacı, var-dövlət isə boğazdan sallanan boyunbağıdır".

Gözəl dinimiz İslamın hər birimizin üzərimizə fərz qıldığı elm öyrənməyi unutmamaq diləyi ilə...

Alpay AZƏR

# NAMAZ VƏ ŞEYTAN

Heç birinin dəstəmazı hələ pozulmamışdı. Kişi çay içən arvadına "Getdim zöhr namazı qılmağa", – dedi. Cavabında arvadı: "İkicə dəyqə gözlə, çayı içim, bir yerdə qılarıq" – dedi. Əri heç nə demədi, daxilən mızıldandı, namazı tək qılmaq istəyirdi, "Gərək, buna deməyəydim ki, namaz qılacam". Eyni zamanda arvadının birgə namaz qılmaq təklifinə "Yox" da deyə bilmədi, masaya dirsəklənib arvadının çayını içib qurtarmasını gözlədi...

"Allahu Əkbər", – təkbir deyib, kişi eyni zamanda hər iki əlinin baş barmağını sağ və sol qulağının dibinə aparıb birinci rükətə başladı. "Fatihəni" oxudu, sonra "Zeytun" surəsinə keçdi. Kişi ürəyində surənin sözlərini desə də beyninə məişət, qeyri-məişət, qayğılı, qayğısız fikirlər *qırıq-qırıq* dolmağa başladı. "İşdən sonra sabah bulvara tək gedim, yoxsa arvadnan?", "İşdən qayıdanda Tarkoviskinin kinoları olan diski alım, ya yox? Bir də, maaşı on gündən sonra alacam, məndə əlli manat qalıb, dörd manat diskə versəm, qırx altı manat, görən, on günə bəs edər? İki kilo ət alacam sabah, on dörd manat çıx, qalanını meyvə tərəvəz, yox disk almayım, qalsın maaş alana..." Rüku və səcdədə ümumiyyətlə, heç nə barədə düşünmədi.

İkinci rükətə keçdi, "Fatihənin" ortasında yenə namaza olan diqqəti yayındı.



"Sabah ağır gündü, üç mühazirə dalbadal, universitetdən çıxıb o biri işə qaçmaq. Nə pis şeydi iki yerdə işləmək. Min manat maaş alsaydım, amma bir yerdən, onda elə bir yerdə də işləyərdim. Daha ora-bura qaçmazdım". "İqra" surəsinə keçdi.... "Arvad da çox qısqancdı, bilir ki, mən zina eləmirəm, yenə qısqanır, qısqanır. Yaxşı ki, boynuna alır ki, səhv eliyir. Pulum olsaydı, ikinci arvad da alardım. Amma dul, qız uşağı yox, ya da boşanmış müsəlman xanım.... Görəsən, yuxarı mərtəbədəki gəlinin əri var? Nədənsə yanında kişi görməmişəm... Amma uşağı var. Eee, qayğılı arvad elə mənə qalıb, imkanlı kişi tapıb ərə getsin də. Allah xoşbəxt eləsin. Üstəlik, bəlkə də heç möminə deyil... Sabaha hansı şalvarı geyinim, cinsi yoxsa qara şalvarı?" Şalvar məsələsi oturub təşəhhüdü oxuyanda yadına düşmüşdü. "Allahu Əkbər" deyib üçüncü rükətə başladı, "Fatihə"də sabah qalstuk taxıb-taxmamaq barədə fikirləşdi, yadına düşdü ki, bir məsələylə bağlı rektorun qəbulunda olmalıdı və üçüncü rükətin səcdələrindən sonra dördüncü rükətə qalxmaq əvəzinə səhvən təşəhhüdü oxumağa başladı, "Şəhadətin" yerində ("Əşhədu ən lə iləha illəllah əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu") birdən səhv qılıb-qılmadığına tam əmin olmadığını hiss etdi. Sağ və sol çiyninə "Əssəlamu aleykum və rəhmətullah" deyəndən sonra arvadına tərəf çevrilib soruşdu:

- Ay arvad, sənə elə gəlmədi ki, mən səhv qıldım?

- Səhv? Yoox, düz qıldın.

- Əminsən? Bəlkə səhv səcdəsi etməli idik?

- Sənə elə gəlmədi ki, mən dörd əvəzinə üç rükət qıldım? – bic-bic qımışdı, yəni deyəsən, sənin də fikrin başqa yerdəydi deyə rükuya, səcdəyə gedəndə rükətləri saymamısan.

- Yox, dörd rükət qıldın... – bunu deyəndə qadın gülümsəmədi, yəni sənin bic-bic gülümsəməyinin mənasını guya anlamadım.

Kişinin birdən yadında düşdü ki, səhv səcdəsinin qaydasını bilmir, yəni, lap arvadı desəydi ki, səhv qılmısan, səhv səcdəsi edə bilməyəcəkdi. Bir də, lap qaydasını bilsəydi belə, əmin deyildi ki, səhv səcdəsini camaat namazında etmək olar, ya yox. "Yox e, bunun qaydasını mütləq sabah öyrənməliyəm". Dəfələrlə özünə söz vermişdi ki, bilən dostlardan birinə zəng edib həmin şeyi öyrənəcək, – ya yadından çıxmışdı, ya da tənbəlliyi tutmuşdu....

Ərinin arxasında durub namaz qılan qadınsa birinci rükətdə bunları düşünmüşdü: "Evin tozunu silmək təmiz yadımdan çıxıb. Bir həftədən də çoxdu polları yumamışam, indi yəqin evdəkilər qiybətimi qırır. Əuzubilləh, yenə şeytan məni namazdan ayırdı..."

İkinci rükətin ikinci surəsində ərinin pencəyi yadına düşmüşdü. "Yuyum, yoxsa ximçitkaya verim? Yusam əziləcək, ximçistkaya versəm, baldız-çuvaldız xanım fikirləşəcək ki, qolunda bir yağ ləkəsinə görə pencəyi ximçistkaya verir, bədxərclik edir, özü yuyub təmizləməyə tənbəllik eləyir. Yaxşısı budu gizlincə heç kimə heç nə demədən sabahısı ximçistkaya aparım". Üçüncü rükətdə sabah işlədiyi xəstəxanada şöbə müdirinin ad günü üçün həkim həmkarlarıyla birgə otuz manatdan pul yığmaqları adəti yadına düşdü. "Qələt eliyirlər, Şöləyə (hamıdan pulu yığıb şöbə müdirlərinə konverti çatdıran həkim) iyirmi manat verəcəm, deyəcəm, bundan çox verə bilmərəm. Çox o yan bu yan eləsə deyəcəm ki... deyəcəm ki... heç nə deməyəcəm, qaşqabağımı sallayıb eyni sözləri deyəcəm. Bundan artığına gücüm çatmır, vəssalam".

## Şeyxülislam Hacı Allahşükür Paşazadə: "Azərbaycanda heç kim ehsanın əleyhinə deyil".



Son günlər ölkədə ehsan süfrələrində israfçılıqla bağlı gedən söz-söhbətlər və bu barədə dövlətin, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin mövqeyi hamının maraq obyektinə çevrilib. Bildiyimiz kimi İslam dini israfçılığın əleyhinədir və hər bir işdə ifrata varmağın doğru olmadığını ortaya qoyur.

23 oktyabr tarixində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə Məhərrəm ayı ilə bağlı keçirilən tədbirdə bir daha bu mövzuya toxunub və müsəlmanları İslamın qoyduğu prinsiplərdən kənara çıxmamağa çağırıb. O, öz çıxışında deyib: "Azərbaycanda heç kim ehsanın əleyhinə deyil. Ancaq ehsan həddində olmalı və israfçılığa yol verilməməlidir. Müqəddəs kitabımız Quranda bir neçə yerdə ehsan sözü qeyd edilir. Lakin bəzi insanlar bunu düzgün anlamırlar. Xalqımızın mentalitetində belə bir şey var. Deyirlər ki, nə üçün filankəs ehsan verir, mən verə bilmirəm? Gedib balalarının ruzisini kəsib ehsan verirlər. Əslində isə belələri Allah üçün ehsan vermir, şeytan üçün verir. Allah buyurur ki, varındırsa, ehsan ver, yoxundursa, vermə". Həmçinin Şeyx onu da vurğulayıb ki, yas məclislərində ehsan həddində olmalı və israfçılığa yol verilməməlidir. «İslamda bir insanın doyması üçün bəs edəcək qədərdən artıq ehsan verilməsi israf hesab edilir".

### Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və Elmi-Dini Şurasının müraciətindən

...Dini nöqteyi-nəzərdən vəfat edən müsəlman üçün vacib olan dörd əməl - qüsl, kəfən, cənazə namazı və dəfndir. Təəssüf ki, müasir dönəmdə müsəlmanlarımız şəriətin bu hökmlərinə önəm vermək əvəzinə bidət hərəkətlərə daha çox meyllənirlər. Mərhumun ailəsinə təsəlli və başsağlığı vermək elimizin qədim adətlərindəndir. Lakin dəfn mərasimlərində təmtəraqlı ehsan verilməsinin dini baxımdan heç bir əsası yoxdur. Ehsan hərfi tərcümədə «yaxşılıq etmək, gözəl iş görmək» mənasını verir. Onun imkansızlara, ehtiyacı olanlara, yetim və kimsəsizlərə verilməsi müstəhəb və bəyənilən əməllərdəndir. Mahiyyətinə görə, ehsan bir kəlmə xoş söz, bir stəkan çay da ola bilər. Bəzi hallarda mərhumun ailəsi özünü əziyyətə salıb, maddi və mənəvi təhlükəyə ataraq, süfrəyə növbənöv təamlar, meyvələr, şirniyyat düzüb özünü kimlərəsə göstərmək xatirinə borcla məclis verir. Bir qədər sonra bu məsuliyyətsiz hərəkəti onu bədbəxtliyə sürükləyəndə günahı özündə deyil, ilahi ədalətsizlikdə axtarır və düşünmür ki, Rəbbimizin əmr və qadağalarına asilik bağışlanılmaz günahlardandır...

*Bakı şəhəri, 13 iyul 2011-ci il*

## TƏMAS XƏTTİNDƏ BAYRAM SEVİNCİ







Məlum olduğu kimi Gəncliyə Yardım Fondu milli və mənəvi cəhətdən əlamətdar hesab olunan günlərdə xüsusi yardıma ehtiyacı olan insanlara yardımlar edir. Fond dünya müsəlmanlarının müqəddəs bayramlarından olan Qurban bayramı münasibəti ilə də öz fəaliyyətlərini davam etdirməkdədir.

Gəncliyə Yardım Fondunun kəsdiyi qurbanların böyük bir hissəsi (təxminən yarısından çoxu) birbaşa qaçqın şəhərciklərinə, qaçqın və məcburi köçkünlərə, şəhid ailələrinə və daha çox ehtiyac sahiblərinə göndərilir. Bu il də kəsilən qurban ətinin bir hissəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərişi ilə başda Tərtər və Tovuz rayonlarının təmas xəttində yerləşən kəndlərində məskunlaşan şəhid ailələrinə və aztəminatlı ailələrə paylanmışdır. Qeyd edilən bölgələrdə yaşayan 2000 ailə bayram sevincini Gəncliyə Yardım Fondu ilə birgə yaşadı.

Fondun hər il həyata keçirdiyi bu xeyriyyə fəaliyyəti eyni zamanda cəmiyyətimizdə fərdlər arasındakı paylaşma ruhunun daha da artmasına və digər təşkilatların da bu cür xeyriyyə aksiyalarına qoşulmalarına vəsilə olmuşdur.

## "Paytaxtdan bölgələrə... Bölgələrdən paytaxta..." adlı layihə həyata keçirildi




Dünya Gənc Türk Yazarlar Birliyinin "Paytaxtdan bölgələrə... bölgələrdən paytaxta" adlı layihə çərçivəsində silsilə tədbirləri respublikamızın müxtəlif bölgələrində yaşayıb-yaradan istedadlı gənc yazarlar, ədəbi ictimaiyyətin nümayəndələrinin, poeziya həvəskarlarının iştirakı ilə keçirildi. Azərbaycan Respublikası Prezidenti Yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə baş tutan tədbir DGTYB-nin idarə heyətinin üzvləri, təşkilatın təsisçiləri və gənc şairlərin Fəxri Xiyabanda ümummilli liderin məzarını, Şəhidlər Xiyabanı, Türk şəhidlərinin abidəsini ziyarətlə başladı. Daha sonra Beynəlxalq Avrasiya Mətbuat Fondunda gənc şairlərlə görüş oldu.

Tədbirin davamı kimi layihə çərçivəsində işıq üzü görmüş "Bölgələrdən səslər-2" toplusu nun təqdimatı Gəncliyə Yardım Fondunda baş tutdu.




Prestige
Prestige Gallery Home
İrfan oxucularına xüsusi endirim nəzərdə tutulur
Yeni sezonda yeni məhsullarımızla xidmətinizdəyik
Cehizlik servis alanları qiymətli hədiyyələr gözləyir
Hand Craft
Sədərək T.M. ELİT (1 mərtəbə)
Sıra 3, Mağaza №8
Tel: (+994 55/70) 209-23-19
(+994 50) 226-23-19
www.prestige-galleryhome.com
Prestige Home
PRESTIGE_AZ